RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 208 (9087) BAZAR, 25 sentyabr 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Müstəqillik dövrünün ən böyük büdcəsi

## 2023-cü ildə də sosial-iqtisadi inkişafın dayanıqlılığı təmin olunacaq

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bərpası, işğaldan azad olunmuş ərazilərə Böyük qayıdışın təmin edilməsi üçün şəhər və kəndlərin yenidən qurulması, həmin ərazilərdə müasir infrastrukturların yaradılması məqsədilə 2023-cü ilin dövlət büdcəsindən 3 milyard manat vəsaitin ayrılması proqnozlaşdırılır. Bu xərclərin növbəti ildə dövlət büdcəsi xərclərində xüsusi çəkisi 9 faiz təşkil edəcək.

Əhalinin, şəhid ailələrinin, qazilərin sosial müdafiəsinin və sosial təminatının gücləndirilməsi, aztəminatlı əhalinin sosial rifahının yaxşılaşdırılması daim dövlət başçısının diqqət mərkəzindədir. Bu istiqamətdə islahatların davam etdirilməsi, inflyasiya təzyiqi nəzərə alınmaqla həssas əhali qruplarına sosial dəstək tədbirlərinin həyata keçirilməsi üçün 2023-cü il üzrə dövlət büdcəsinin sosialyönlü xərcləri cari illə müqayisədə 9,2 faiz çox nəzərdə tutulub.

→ 4

## Ölkəmiz regionda sülhün və inkişafın qarantıdır

Azərbaycan bu gün yaratdığı reallıqları daha da möhkəmləndirir. Bütün dünya ictimaiyyəti hansısa məsələ barədə rəy formalaşdırarkən həmin reallıqlara istinad edir. Həyatımızdakı gerçəkliklər isə göz önündədir. Prezident İlham Əliyevin ötən onilliklərdə həyata keçirdiyi siyasət Azərbaycanı Cənubi Qafqazın əsas inkişaf mərkəzinə çevirdi. Hazırda ölkəmiz regionun müasir iqtisadi-siyasi mənzərəsini müəyyənləşdirən qlobal layihələrin həm təşəbbüskarı, həm də icraçısıdır. Bu layihələr regiona sülh, ölkəmizə davamlı inkişaf, vətəndaşlara rifah gətirir. Onlardan böyük bir coğrafiyada yaşayan insanlar da faydalanırlar. Azərbaycanın tutduğu yol, təklif etdiyi gələcək hər kəsin maraqlarına xidmət edir. Hamı üçün daha gözəl bir dünyanın qurulmasına töhfə verir.

→ 4

## "İndoneziyanın Azərbaycanın haqq işini davamlı dəstəkləməsini yüksək qiymətləndiririk"

### İndoneziya Respublikasının Prezidenti zati-aliləri cənab Coko Vidodoya

Hörmətli cənab Prezident!

Azərbaycan Respublikası ilə İndoneziya Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi ilə əlaqədar Sizi və dost xalqınızı səmimiyyətlə təbrik edir, ən xoş arzularımı çatdırıram.

Ötən onilliklər ərzində qarşılıqlı inam və etimada əsaslanan Azərbaycan-İndoneziya əlaqələrinin yüksələn xətlə inkişaf edərək bugünkü səviyyəyə çatması məmnunluq doğurur. Hesab edirəm ki, hazırda ölkələrimiz arasında əməkdaşlıq münasibətlərinin keyfiyyətcə yeni pilləyə qaldırılması, əlaqələrimizin yeni istiqamətlərinin müəyyənləşdirilməsi üçün yaxşı imkanlar vardır.

İndoneziya Respublikasının beynəlxalq hüququn norma və prinsiplərinə, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin tələblərinə uyğun olaraq ölkəmizin ərazi bütövlüyü, suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına verdiyi dəstəyə və ədalətli mövqeyinə görə minnətdarıq. Biz ölkənizin BMT, İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində Azərbaycanın haqq işini davamlı dəstəkləməsini yüksək qiymətləndirir, bunu həmrəyliyimizin və dostluğumuzun həqiqi təzahürü kimi dəyərləndiririk.

Bu gün ölkəmizin işğaldan azad olunmuş ərazilərində aparılan əsaslı bərpa və yenidənqurma işləri əməkdaşlığımızın əhatə dairəsinin genişlənməsi üçün əlverişli şərait yaradır. İnanıram ki, birgə səylərimizlə Azərbaycan-İndoneziya əlaqələrinin mövcud potensialından daha səmərəli istifadə olunmasına, həm ikitərəfli, həm də çoxtərəfli əsasda qarşılıqlı fəaliyyətimizin daha da inkişafına nail ola bilərik.

Bu xoş fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost İndoneziya xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 sentyabr 2022-ci il*

## "Azərbaycan hökumətinə və xalqına dərin minnətdarlığımı ifadə edirəm"

### Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri!

Bu əlamətdar gün - 1992-ci il sentyabrın 24-də İndoneziya Respublikası ilə Azərbaycan Respublikası arasında qurulan diplomatik əlaqələrin 30-cu ildönümü münasibətilə İndoneziya hökuməti və xalqı adından Zati-alinizə səmimi salamlarımı və təbriklərini çatdırıram.

Fürsətdən istifadə edərək İndoneziyanın müxtəlif sahələrdə ikitərəfli əlaqələrimizin genişlənməsinə verdiyi önəmi bir daha vurğulayıram. Ümidvaram ki, müxtəlif beynəlxalq forumlarda Azərbaycanla sıx əməkdaşlığı davam etdirəcəyik. Eyni zamanda qlobal çağırışların hökm sürdüyü bir vaxtda hökumətlərimiz xalqlarımızın rifahı naminə ərzaq və enerji təhlükəsizliyini daha yaxşı təmin etmək üçün əməkdaşlığı bundan sonra daha da inkişaf etdirməlidir.

Cənab Prezident, son 30 il ərzində sürətlə inkişaf edən əməkdaşlığa və möhkəmlənən dostluğa görə Azərbaycan hökumətinə və xalqına dərin minnətdarlığımı ifadə edirəm.

Zati-aliləri, Sizə və Azərbaycan xalqına xoşbəxtlik, möhkəm cansağlığı və tərəqqi arzulayıram.

Xahiş edirəm, ən yüksək ehtiramımı qəbul edin.

***Coko VİDODO,***
***İndoneziya Respublikasının Prezidenti***

## Hüseyn Cavidin anadan olmasının 140-cı ildönümü qeyd ediləcək

### Prezident bununla bağlı sərəncam imzalayıb

Hüseyn Cavid sovet rejiminin ən sərt təzyiqləri şəraitində belə, mənən sarsılmayaraq şəxsiyyətinin bütövlüyünü ləyaqətlə qorumuşdur. Ulu Öndər Heydər Əliyevin şəxsi təşəbbüsü ilə Cavidin nəşinin 40 il öncə uzaq Sibirdən vətəninə gətirilməsi və məzarı üzərində məqbərənin ucaldılması adı sovet totalitarizminin günahsız qurbanlarının rəmzinə çevrilmiş sənətkarın və 1930-cu illərdə repressiyalara uğramış Azərbaycan ziyalılarının xatirəsinə ehtiramın ifadəsidir.

→ 2



# Azərbaycan qazına tələbatın artması məsələsi gündəmdən düşmür

→ 5

## Ermənistan tərəfindən açılan atəş nəticəsində hərbi qulluqçularımız yaralanıb

→ 6

## İş adamları Ermənistandan qaçır

"4rd.am" saytı yazır ki, mütləq ümumi yığım əmsalı Ermənistan tarixində ən yüksək göstəricidir, lakin onların real dəyəri nisbətən aşağıdır, çünki son illərin məcmu inflyasiyasını nəzərə alsaq, eyni yığım sürəti təxminən 10 faiz azalacaq: "Ona görə də 2021-ci ildə qoyulan investisiyaların bir hissəsi inflyasiyanı yeyib. Məsələn, tikinti materiallarının ikirəqəmli bahalaşması şəraitində ölkə vətəndaşı tikintiyə daha çox pul xərcləyib, amma eyni evi tikib. İnvestisiyaların ümumi yığımına bir il ərzində dövlət, icmalar, təşkilatlar, fiziki şəxslər tərəfindən əsas kapitala edilən xərclər daxildir. Bu göstəricinin hesablanmasına dövlət tərəfindən çəkilən yolların xərcləri, dövlət tərəfindən tikilən mənzilin dəyəri və sairə də daxildir. Ermənistan Statistika Komitəsi faktiki uçota alınmış xərclərlə yanaşı, mütəmadi olaraq ümumi yığımları qiymətləndirir, yəni müəyyən metodologiyaya uyğun olaraq artırır. Bu hesablamalar heç vaxt statistika komitəsi tərəfindən açıqlanmır, bunlar ümumi yığımların strukturunu başa düşməyə imkan verə bilər".

→ 8

## "Shusha Chess-2022" beynəlxalq turniri başa çatdı

Gənclər və İdman Nazirliyi, Azərbaycan Şahmat Federasiyası (AŞF) və Şuşa Şəhəri Dövlət Qoruğunun birgə təşkilatçılığı ilə ölkəmizin mədəniyyət paytaxtı Şuşada Qarabağ xanlığının sonuncu varisi, görkəmli şair və xeyriyyəçi Xurşidbanu Natəvanın 190 illiyinə həsr olunmuş "Shusha Chess-2022" beynəlxalq turniri başa catıb.

Kişilər və qadınlar arasında 4 gün davam edən yarışlarda 9 ölkədən 20 tanınmış qrosmeyster təmsil olunurdu.

Beynəlxalq şahmat turniri iki kateqoriyada - kişilər və qadınlar arasında keçirilib. Hər kateqoriya üzrə 10 şahmatçı rapid və blits üzrə mübarizə aparıblar.

→ 8

## Ermənistan Müdafiə Nazirliyinin yaydığı məlumat növbəti təxribat xarakterli dezinformasiyadır

→ 6

# Azərbaycan jurnalistlərinin VIII qurultayı keçirilib

→ 5

# Tarixən mehribanlıq və qarşılıqlı anlaşma şəraitində yaşamış xalqlarımızın iradəsi Azərbaycan-Türkmənistan əlaqələrinin əsasını təşkil edir

## Türkmənistanın Prezidenti zati-aliləri cənab Sərdar Berdiməhəmmədova

Hörmətli Sərdar Qurbanquliyeviç!

Türkmənistanın milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

Bu gün qardaş Türkmənistanın sabit və dinamik inkişaf yolu ilə irəliləyərək siyasi, iqtisadi, sosial və digər sahələrdə böyük nailiyyətlər əldə etməsi bizi sevindirir.

Ortaq mənəvi dəyərlər, dini-mədəni köklər ilə bir-birinə bağlı olan, tarixən mehribanlıq və qarşılıqlı anlaşma şəraitində yaşamış xalqlarımızın iradəsi Azərbaycan-Türkmənistan əlaqələrinin əsasını təşkil edir. İkitərəfli və çoxtərəfli əlaqələrimizin ötən otuz ildə yüksələn xətt üzrə inkişaf etməsi və hazırkı strateji tərəfdaşlıq səviyyəsinə çatması məmnunluq doğurur. Biz münasibətlərimizin hərtərəfli inkişafına xüsusi əhəmiyyət veririk.

Əminəm ki, mövcud imkanlardan yararlanaraq birgə səylərimizlə ölkələrimiz arasında dostluq münasibətlərinin, zəngin potensiala malik həm ikitərəfli, həm də çoxtərəfli qarşılıqlı səmərəli əməkdaşlığımızın daha da dərinləşməsinə nail olacağıq.



Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, qardaş Türkmənistan xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 sentyabr 2022-ci il*

# Təhlükə potensiallı obyektlərin təhlükəsiz istismarının təmin edilməsi sahəsində dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin əlaqələndirilməsi üzrə Koordinasiya Komissiyasının yaradılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, təhlükə potensiallı obyektlərin təhlükəsiz istismarının təmin edilməsi, əhalinin və ətraf mühitin bu obyektlərdə baş verə biləcək qəzalardan qorunması və bu sahədə fəaliyyət göstərən dövlət orqanlarının (qurumlarının) işinin əlaqələndirilməsi məqsədilə **qərara alıram:**

1. Təhlükə potensiallı obyektlərin təhlükəsiz istismarının təmin edilməsi sahəsində dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin əlaqələndirilməsi üzrə aşağıdakı tərkibdə Koordinasiya Komissiyası (bundan sonra - Komissiya) yaradılsın:

**Komissiyanın sədri**

Azərbaycan Respublikası Baş nazirinin müavini

**Komissiyanın üzvləri**

Azərbaycan Respublikasının fövqəladə hallar naziri
Azərbaycan Respublikasının müdafiə sənayesi naziri
Azərbaycan Respublikasının daxili işlər naziri
Azərbaycan Respublikasının iqtisadiyyat naziri
Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri
Azərbaycan Respublikasının energetika naziri
Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri
Azərbaycan Respublikasının səhiyyə naziri
Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri
Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi
Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin rəisi
Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin sədri.

2. Komissiyanın cari fəaliyyətinin təşkili məqsədilə Komissiyanın Katibliyi yaradılsın və Katibliyin funksiyasının həyata keçirilməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatına həvalə edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. Komissiya haqqında Əsasnamənin layihəsini hazırlayıb bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

4. Komissiya:

4.1. təhlükə potensiallı obyektlərin təhlükəsiz istismarının təmin edilməsi, bu obyektlərdə baş verə biləcək qəzaların qarşısının alınması ilə bağlı mütəmadi təhlillər aparılması və qabaqlayıcı tədbirlər görülməsi üçün təkliflər hazırlanmasını, bu sahədə müvafiq dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin əlaqələndirilməsini, birgə tədbirlərin planlaşdırılmasını və həyata keçirilməsini təmin etsin;

4.2. Komissiyanın üzvü olan dövlət orqanlarının (qurumlarının) fəaliyyət istiqamətlərinə aid sahələrdə həmin dövlət orqanlarının (qurumlarının) mütəxəssislərindən ibarət daimi fəaliyyət göstərən və aşağıdakı funksiyaları yerinə yetirən işçi qrupların yaradılmasını və fəaliyyətini təmin etsin:

4.2.1. müvafiq dövlət orqanları (qurumları) tərəfindən təhlükə potensiallı obyektlərdə keçirilən monitorinqlərin nəticələrinin təhlili və qiymətləndirilməsi üzrə təkliflər hazırlanması;

4.2.2. dövlət orqanlarının (qurumlarının) fəaliyyət istiqamətləri üzrə müvafiq texniki reqlamentlərin müəyyən olunması istiqamətində fəaliyyətinin əlaqələndirilməsi;

4.2.3. beynəlxalq təcrübə nəzərə alınmaqla, təhlükə potensiallı obyektlərin təhlükəsiz istismarı sahəsində mövcud normativ hüquqi aktların təkmilləşdirilməsi məqsədilə təkliflər hazırlanması.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 sentyabr 2022-ci il*

# Hüseyn Cavidin 140 illiyinin qeyd edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2022-ci ildə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, mütəfəkkir şair və dramaturq Hüseyn Cavidin (Hüseyn Abdulla oğlu Rasizadənin) anadan olmasının 140 ili tamam olur.

Hüseyn Cavid fəlsəfi müdrikliyin və bədii kamilliyin ahəngdar vəhdətini dolğun təcəssüm etdirən yaradıcılığı ilə Azərbaycan ədəbiyyatı tarixinə işıqlı səhifələr yazmışdır. O, bütün ədəbi fəaliyyəti boyu həqiqəti, insanpərvərliyi və gözəlliyi tərənnüm etmişdir. Şərq poetik fikri zəminində yüksələn və dünya romantizm ənənələrindən uğurla bəhrələnən filosof-şair Azərbaycan poeziyasında fəlsəfi lirikanın dəyərli nümunələrini meydana gətirmişdir. Qüdrətli sənətkar humanist ideallar uğrunda mübarizəyə səsləyən mənzum faciələri və tarixi dramları ilə Azərbaycan dramaturgiyasında yeni mərhələnin təməlini qoymuşdur. Parlaq xarakterlərlə zəngin olub, bir neçə nəslin estetik zövqünü formalaşdıran və ölkəmizdə teatr mədəniyyətinə yeni nailiyyətlər qazandıran bu dramaturgiya milli teatr salnaməsində "Cavid teatrı" kimi özünəməxsus layiqli yer tutur. Cavid irsi Azərbaycan ədəbiyyatının qızıl fonduna həmişəlik daxil olmuşdur.

Hüseyn Cavid sovet rejiminin ən sərt təzyiqləri şəraitində belə, mənən sarsılmayaraq şəxsiyyətinin bütövlüyünü ləyaqətlə qorumuşdur. Ulu Öndər Heydər Əliyevin şəxsi təşəbbüsü ilə Cavidin nəşinin 40 il öncə uzaq Sibirdən vətəninə gətirilməsi və məzarı üzərində məqbərənin ucaldılması adı sovet totalitarizminin günahsız qurbanlarının rəmzinə çevrilmiş sənətkarın və 1930-cu illərdə repressiyalara uğramış Azərbaycan ziyalılarının xatirəsinə ehtiramın ifadəsidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan ədəbi-bədii fikrinin inkişafında müstəsna rol oynamış böyük söz ustası Hüseyn Cavidin anadan olmasının 140-cı ildönümünün qeyd olunmasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə mütəfəkkir şair və dramaturq Hüseyn Cavidin 140 illiyinə dair tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 sentyabr 2022-ci il*

# Ə.Ə.Amaşovun "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında medianın inkişafında xidmətlərinə görə Əflatun Əhməd oğlu Amaşov "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 sentyabr 2022-ci il*

# *Müdafiə naziri:* "Azərbaycan Ordusunun qətiyyətli cavab tədbirləri Ali Baş Komandan tərəfindən yüksək qiymətləndirilib"



Sentyabrın 24-də Mərkəzi Komanda Məntəqəsində müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə xidməti müşavirə keçirilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, müşavirədə nazir müavinləri, qoşun növləri komandanları, nazirliyin baş idarə, idarə və xidmət rəisləri, eləcə də videobağlantı vasitəsilə azad edilmiş ərazilərdə dislokasiya olunan hərbi birlik və birləşmə komandirləri iştirak ediblər.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin, eləcə də ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Müdafiə naziri Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Azərbaycan Ordusu qarşısında qoyduğu tapşırıqları müşavirə iştirakçılarının diqqətinə çatdırıb.

Nazir sentyabrın 12-14-də Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatlarının qarşısının alınması məqsədilə Azərbaycan Ordusunun həyata keçirdiyi qətiyyətli cavab tədbirlərinin Ali Baş Komandan tərəfindən yüksək qiymətləndirildiyini xüsusi vurğulayıb.

Bildirilib ki, müxtəlif qoşun növü bölmələrinin gecə saatlarında eyni anda bir neçə istiqamətdə çətin relyefli, dağlıq ərazidə qarşılıqlı əlaqədə həyata keçirdiyi uğurlu cavab tədbirləri Azərbaycan Ordusunun hərb elminə gətirdiyi növbəti yenilik oldu. Bu döyüşlər dünyanın aparıcı hərbi mütəxəssisləri tərəfindən araşdırılacaq və təhlil ediləcək.

Müşavirədə Kəlbəcər və Laçın rayonları istiqamətində, eləcə də Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi ərazilərimizdə hazırkı əməliyyat şəraiti təhlil edilib.

Nazir şəxsi heyətin sayıqlığının artırılması və Ermənistan silahlı qüvvələri tərəfindən törədilə biləcək istənilən təxribatın qarşısının bundan sonra da dərhal və qətiyyətlə alınması barədə konkret tapşırıqlar verib.

General-polkovnik Z.Həsənov bölmələrdə qışa hazırlıq işlərinin plana əsasən yekunlaşdırılması, xüsusilə dağlıq ərazilərdə dislokasiya olunan bölmələrə lazımi ehtiyatların çatdırılması barədə aidiyyəti şəxslərə müvafiq göstərişlər verib.

Müdafiə naziri Silahlı Qüvvələrin Ali Baş Komandanının tapşırığına əsasən, bölmələrimizin yeni yerləşmə məntəqələrində xidməti-döyüş fəaliyyətinin təşkili ilə bağlı digər dövlət qurumları ilə qarşılıqlı əlaqədə zəruri tədbirlərin qısa müddət ərzində başa çatdırılmasının vacibliyini diqqətə çatdırıb.

Nazir qoşunlarda xidmət və məişət şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlərin hərbi qulluqçuların döyüş və mənəvi-psixoloji vəziyyətinin yüksək səviyyədə saxlanılmasında mühüm rol oynadığını vurğulayıb.

Sonra general-polkovnik Z.Həsənov şəhid ailələri və döyüşlərdə sağlamlığını itirən hərbi qulluqçuların daim diqqət mərkəzində saxlanılması və onların qayğılarına xüsusi həssaslıqla yanaşılması barədə müvafiq göstərişlər verib.

Müşavirənin sonunda qoşun xidmətinin, ideoloji işin təşkili, şəxsi heyətin xidməti və sosial-məişət şəraitinin, tibbi təminatının daha da yaxşılaşdırılması, həmçinin azad edilmiş ərazilərdə mühəndis tədbirlərinin davam etdirilməsi ilə əlaqədar vəzifəli şəxslər qarşısında konkret tapşırıqlar qoyulub.

# Azərbaycan və Türkiyə müdafiə nazirlərinin telefon danışığı olub

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ilə Türkiyə Respublikasının milli müdafiə naziri Hulusi Akar arasında telefon danışığı olub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, general-polkovnik Z.Həsənov həmkarını Ermənistan silahlı birləşmələrinin son təxribatlarına qarşı ordumuz tərəfindən görülən qətiyyətli tədbirlərdən sonra yaranmış əməliyyat şəraiti, eləcə də ordu quruculuğu sahəsində aparılan işlər barədə ətraflı məlumatlandırıb.

H.Akar Türkiyənin həmişə olduğu kimi, bu gün də Azərbaycanı dəstəklədiyini və daim yanında olduğunu xüsusi qeyd edib.

Telefon danışığı zamanı həmçinin Azərbaycan-Türkiyə hərbi əməkdaşlığının perspektivləri barədə fikir mübadiləsi aparılıb.

# Ceyhun Bayramov BMT-də G77 və Çin Qrupunun 46-cı illik nazirlər iclasında iştirak edib

Sentyabrın 23-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov BMT-də G77 və Çin Qrupunun "Ərzaq, yanacaq və maliyyə böhranlarının aradan qaldırılması və Dayanıqlı İnkişaf Məqsədlərinə çatmağın yolları" mövzusunda 46-cı illik nazirlər iclasında iştirak edib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, 134 ölkənin xarici işlər nazirlərinin qatıldığı iclasda nazir Ceyhun Bayramov çıxış edərək ərzaq, yanacaq və maliyyə böhranları ilə mübarizədə, habelə onların nəticələrinin aradan qaldırılmasında qlobal həmrəylik və əməkdaşlığın əhəmiyyətini vurğulayıb. Sözügedən qlobal problemlərlə mübarizədə G77-nin birgə səylərin konsolidasiyası, habelə həmrəyliyin, əməkdaşlığın möhkəmləndirilməsi və BMT sisteminin mərkəzi mövqeyinin vurğulanmasına öz töhfəsini verə biləcəyinə dair əminlik ifadə olunub.

G77-nin nisbətən yeni üzvü olmasına baxmayaraq, Azərbaycanın bu qrupun işinə fəal töhfə verməyə çalışdığı qeyd edilib. Bu xüsusda, nazir Ceyhun Bayramov, Qoşulmama Hərəkatının (QH) fəaliyyətdə olan sədri kimi Azərbaycanın QH və G77 arasında səmərəli qarşılıqlı fəaliyyətin qurulmasına çalışdığını söyləyib.

Ermənistan və Azərbaycan arasında münaqişənin sona çatması, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsindən sonra regionda yeni reallıqların yarandığı diqqətə çatdırılıb. Bu xüsusda, nazir Ceyhun Bayramov kommunikasiyaların bərpası və Zəngəzur dəhlizinin həyata keçirilməsi yolu ilə formalaşan nəqliyyat qovşağının Çinlə Cənubi Avropa arasında ən qısa quru marşrutu təmin edəcəyini vurğulayıb.

Azərbaycanın COVID-19 pandemiyasının yaratdığı problemlərin həllində 80-dən çox inkişaf etməkdə olan ölkəyə beynəlxalq humanitar, texniki və maliyyə yardımı göstərdiyi və bundan sonra da Cənub-Cənub əməkdaşlığının etibarlı tərəfdaşlarından biri kimi öz dəstəyini əsirgəməyəcəyi bildirilib.

# Azərbaycanın xarici işlər naziri Nyu Yorkda bir sıra görüşlər keçirib

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Nyu Yorkda BMT Baş Assambleyasının 77-ci sessiyasının yüksəksəviyyəli həftəsində iştirakı çərçivəsində Barbadosun xarici işlər və xarici ticarət naziri Senator Jerom Xavier Volkot və Qvatemalanın xarici işlər naziri Mario Bukaro ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşlər zamanı tərəflər arasında Qoşulmama Hərəkatı çərçivəsində və digər beynəlxalq platformalarda fəaliyyət və əməkdaşlıq ətrafında fikir mübadiləsi aparılıb.

Nazir Ceyhun Bayramov sözügedən ölkələr tərəfindən Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə, eləcə də Qoşulmama Hərəkatı çərçivəsində sədrliyimiz dövründə ölkəmizin təşəbbüslərinə göstərilən dəstəyə görə minnətdarlığını bildirib və bu çərçivədə gələcək planlar barədə həmkarlarını məlumatlandırıb.

Qarşı tərəflər Azərbaycanla həm Qoşulmama Hərəkatı çərçivəsində, həm də ikitərəfli əsasda əməkdaşlığın genişləndirilməsi niyyətində olduqlarını bildiriblər.

Nazir 44 günlük Vətən müharibəsindən sonrakı postmünaqişə dövründə ölkəmiz tərəfindən görülən işlər barədə həmkarlarını məlumatlandırıb. Ermənistanın Azərbaycana qarşı son təxribatlarının sülh gündəliyinə maneə törətmək və prosesləri ləngitmək məqsədi daşıdığı vurğulanıb.

* * *

Nyu Yorkda BMT Baş Assambleyasının 77-ci sessiyasının yüksəksəviyyəli həftəsi çərçivəsində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Albaniyanın Avropa və xarici işlər naziri Olta Xaçka ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüş zamanı Azərbaycanla Albaniya arasında ikitərəfli münasibətlərin hazırkı vəziyyəti və perspektivləri, habelə regional məsələlər müzakirə edilib.

Nazir Ceyhun Bayramov Azərbaycan ilə Albaniya arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə inkişafından məmnunluğunu bildirib. İki ölkə arasında yüksəksəviyyəli siyasi dialoqun və təmasların ikitərəfli əməkdaşlığın genişləndirilməsi baxımından əhəmiyyəti diqqətə çatdırılıb. Enerji sahəsində əməkdaşlığın Azərbaycan-Albaniya əlaqələrinin əsas istiqamətlərindən birini təşkil etdiyi bildirilərək "Cənub qaz dəhlizi"nin önəmi vurğulanıb.

Ceyhun Bayramov Ermənistan tərəfinin təxribatları barədə məlumat verərək liderlər arasında imzalanan üçtərəfli bəyanatların və Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyi ilə Azərbaycanla Ermənistan liderləri arasında razılıqların kobud pozuntusu olduğunu və vasitəçilik səylərinə xələl gətirdiyini qeyd edib.

Albaniyalı nazir öz növbəsində ölkəsinin Azərbaycanla münasibətlərin daha da inkişafında maraqlı olduğunu qeyd edib. Azərbaycanla Albaniyanın beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığından məmnunluq ifadə olunub, tərəflər üçün maraq kəsb edən beynəlxalq və regional məsələlər ətrafında məsləhətləşmələrin davam etdirilməsinin vacibliyi bildirilib.

Görüşdə həmçinin iki ölkə arasında siyasi əlaqələrin daha da möhkəmləndirilməsi, əməkdaşlığın iqtisadi, ticari, enerji, sərmayə qoyuluşu, turizm və digər sahələrdə genişləndirilməsi perspektivləri ilə bağlı məsələlərə toxunulub.

* * *

Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Nyu Yorkda BMT Baş Assambleyasının 77-ci sessiyasının yüksəksəviyyəli həftəsi çərçivəsində İsveç Krallığının xarici işlər naziri Ann Linde ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı Azərbaycanla İsveç arasında ikitərəfli və çoxtərəfli platformalarda əməkdaşlıq perspektivləri, habelə regional məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

Ceyhun Bayramov iki ölkə arasında münasibətlərin daha da inkişaf etdirilməsi üçün geniş imkanların mövcud olduğunu bildirib, İsveçin ATƏT-də sədrliyi dövründə apardığı fəaliyyət müsbət qiymətləndirilib.

Azərbaycanın xarici işlər naziri qarşı tərəfə bölgədə mövcud olan cari vəziyyət, Ermənistanın son təxribatları və mina təhlükəsi barədə ətraflı məlumat verib.

İsveç naziri mövcud gərginlikdən narahatlıqlarını diqqətə çatdıraraq normallaşma prosesinin davam etdirilməsinin vacib olduğunu bildirib. O, İsveçin Azərbaycanla Ermənistan arasında vasitəçilik səylərinə dəstək verməyə hazır olduğunu diqqətə çatdırıb.

* * *

Nyu Yorkda BMT Baş Assambleyasının 77-ci sessiyasının yüksəksəviyyəli həftəsi çərçivəsində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Sloveniyanın xarici işlər naziri Tanja Fajon ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, ikitərəfli siyasi və iqtisadi əməkdaşlığın əhəmiyyətli rol oynadığını deyən nazir, iqtisadi fəaliyyət, investisiya qoyuluşu, turizm və digər sahələrdə əlaqələri inkişaf etdirmək üçün imkanların araşdırılmasının zəruriliyini qeyd edib. Nazir görüş zamanı Ermənistanın ölkəmizə qarşı təcavüzünün tarixi, postmünaqişə dövründə Ermənistanın təxribatları, bölgədəki genişmiqyaslı mina təhdidləri barədə məlumat verib.

Azərbaycanla Sloveniya arasında dostluq əlaqələrinin mövcud olduğunu qeyd edən Sloveniya xarici işlər naziri iqtisadi və energetika sahəsində əlaqələrin genişləndirilməsi üçün marağın olduğunu bildirib. Nazir Sloveniyanın minasızlaşdırma sahəsində Azərbaycanla əməkdaşlıq etdiyini və bu əməkdaşlığın genişləndirilməsinin vacib olduğunu diqqətə çatdırıb. O, bölgəmizdə yaranmış gərginliyə görə narahatlığını diqqətə çatdırıb və problemlərin siyasi-diplomatik müstəvidə həllinin zəruri olduğunu qeyd edib.

Görüş zamanı ölkələrimiz arasında ikitərəfli siyasi dialoqun davam etdirilməsinin vacibliyi vurğulanıb, bir sıra regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Nyu Yorkda BMT Baş Assambleyasının 77-ci sessiyasının yüksəksəviyyəli həftəsi çərçivəsində Sinqapurun xarici işlər naziri Vivian Balakrişnan ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, Ceyhun Bayramov Azərbaycanla Sinqapur arasında Qoşulmama Hərəkatında, habelə bir çox beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıqdan və ölkəmizə verilən dəstəkdən məmnunluğunu ifadə edib. Yüksəksəviyyəli mütəmadi səfərlərin, nazir müavinləri səviyyəsində siyasi məsləhətləşmələrin ölkələrimiz arasında sıx əlaqələrin qurulması üçün yaxşı zəmin yaradacağı bildirilib. Münasibətlərimizin siyasi, iqtisadi, ticarət, yüksək texnologiyalar və digər sahələrdə böyük potensialı olduğu diqqətə çatdırılıb.

Nazir eyni zamanda Ermənistanın ölkəmizə qarşı təcavüzünün tarixi, 44 günlük müharibədən sonra postmünaqişə dövründə ölkəmiz tərəfindən həyata keçirilən işlər, eləcə də Ermənistanın son təxribatları barədə qarşı tərəfə ətraflı məlumat verib.

Vivian Balakrişnan Sinqapurun Azərbaycanla əməkdaşlığın inkişafında maraqlı olduğunu, bir sıra Sinqapur şirkətlərinin ölkəmizə sərmayə qoyduğunu diqqətə çatdırıb. Ölkələrimiz arasında qarşılıqlı faydalı biznes əlaqələrinin inkişaf etdirilməsi üçün imkanların araşdırıldığı qeyd edilib.

Görüş zamanı eyni zamanda Azərbaycanla Sinqapur arasında iqtisadi əməkdaşlıq Komissiyasının təsis edilməsinin, təhsil sahəsində əməkdaşlığın perspektivləri, mədəniyyət sahəsində mübadilələrin həyata keçirilməsi, habelə qarşılıqlı maraq doğuran ikitərəfli və regional məsələlər müzakirə edilib.

# Milli Məclisin Sədri Sahibə Qafarova TÜRK PA Katibliyinin fəaliyyəti ilə tanış olub





Milli Məclisin Sədri Sahibə Qafarova TÜRK PA Katibliyində olub.




Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin Sədrini TÜRK PA-nın baş katibi Süreyya Er qarşılayıb. Sonra Sahibə Qafarova katibliyin inzibati binasının həyətində ağac əkib. Milli Məclisin Sədri katibliyin inzibati binası ilə tanış olub, burada yaradılan iş şəraiti ilə maraqlanıb.

Sonra spiker katibliyin kollektivi ilə görüşüb. Sahibə Qafarova kollektivi səmimiyyətlə salamlayaraq qeyd edib ki, Azərbaycan Milli Məclisi TÜRK PA yarandığı dövrdən bu təşkilatla əməkdaşlığa xüsusi önəm verib və təşkilatın fəaliyyətinə diqqət və qayğı göstərib. Onun sözlərinə görə, TÜRK PA-nın fəaliyyəti dövlətlərimiz və xalqlarımız arasında mövcud olan dostluq və qardaşlıq münasibətlərinin dərinləşməsinə xidmət edir.

Milli Məclislə TÜRK PA arasında münasibətlərin yüksək səviyyədə inkişaf etməsindən məmnunluğunu bildirən spiker deyib ki, parlamentimiz təşkilata üzv olan ölkələrin qanunverici orqanları ilə geniş əməkdaşlıq əlaqələrinə malikdir. Ötən dövr ərzində təşkilata üzv parlamentlər arasında əməkdaşlıq daha da inkişaf edib. TÜRK PA-nın ayrı-ayrı komissiyalarının iclaslarının və ölkələrimizi maraqlandıran müxtəlif mövzulara həsr edilmiş seminarların keçirilməsi, model qanunların işlənib hazırlanması, seçki və referendum müşahidə missiyalarının təşkili, beynəlxalq parlament təşkilatları çərçivəsində birgə fəaliyyətimiz səmərəli əməkdaşlığımızın mühüm göstəriciləridir.

Azərbaycan parlamentinin Sədri xatırladıb ki, Milli Məclisin təşkilatçılığı ilə Bakı şəhərində TÜRK PA-nın komissiya iclası, seminarı, konfrans və görüşləri keçirilib. Digər tərəfdən, üzv parlamentlərin nümayəndələri ölkəmizin 44 günlük Vətən müharibəsi nəticəsində işğaldan azad edilmiş ərazilərinə, o cümlədən Azərbaycanın mədəniyyət paytaxtı, 2023-cü ildə "Türk Dünyasının Mədəniyyət Paytaxtı" Şuşa şəhərinə səfər ediblər. Qardaş ölkələrimizin parlament üzvləri Ermənistanın işğalı dövründə törədilmiş vəhşiliklərin və dağıntıların şahidi olmaqla yanaşı, işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma işləri ilə də tanış olublar.

Qeyd olunub ki, TÜRK PA çərçivəsində model qanunların təqdim edilməsi ilə bağlı Milli Məclis Aparatında müsbət əməkdaşlıq təcrübəsi formalaşıb. TÜRK PA-da qəbul edilən 7 model qanundan 5-nin ilkin layihəsi Milli Məclis tərəfindən təqdim edilib. Milli Məclis təşkilata üzv olan ölkələrin parlamentləri ilə qanunvericilik təcrübəsinin bölüşməsində maraqlıdır.

Milli Məclisin Sədri katiblikdə çalışan heyətin fəaliyyətini müsbət qiymətləndirib. O, təşkilatda əlverişli işgüzar mühitin yaradıldığını diqqətə çəkərək inamını ifadə edib ki, burada çalışan əməkdaşlar öz təcrübə, bilik və bacarıqlarını bundan sonra da təşkilatın səmərəli fəaliyyətinə yönəldəcəklər.

Göstərilən yüksək diqqətə və təşkilata verilən dəstəyə görə Milli Məclisin Sədrinə minnətdarlığını bildirən TÜRK PA-nın baş katibi Süreyya Er katibliyin fəaliyyəti haqqında geniş məlumat verib.

*"Azərbaycan"*

# Azərbaycanın şərtləri dəyişməzdir

## Sülh müqaviləsinin imzalanması regionda yeni eranın başlangıcı olacaq

Ermənistan sülh sazişini, sərhədlərin delimitasiya və demarkasiya prosesini uzatmaq üçün hər vəchlə əlindən gələni edir. Bu istiqamətdə normallaşma prosesinə əngəl törədən ermənilər təxribatlar törədir, bunun qarşılığını layiqincə aldıqda isə Azərbaycana qarşı əsassız ittihamlar irəli sürürlər. Təbii ki, delimitasiyadan yayınan işğalçı ölkənin səsləndirdiyi fikirlər uydurmadan başqa bir şey deyil.

Prezident İlham Əliyevin də Laçın şəhərində çıxışı zamanı qeyd etdiyi kimi, Azərbaycan əsgəri öz torpaqlarını qoruyur.

### Delimitasiya və demarkasiya müəyyənləşmədiyi üçün sərhəd xətti yoxdur

Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc qəzetimizin əməkdaşına açıqlamasında bildirib ki, Azərbaycan xalqının həyatında dönüş nöqtəsi, milli birlik və bütövlük günü olan, 30 il işğal altında qalan torpaqların qurtuluşu üçün başladılan böyük milli hərəkatın ildönümü ərəfəsindəyik. Bu dövr Prezident İlham Əliyevin Laçına səfəri, son əməliyyatlar fonunda, ondan əvvəl Laçın dəhlizi və bunun ətrafında qurulan müxtəlif planlar, hərbi əməliyyatlarda Azərbaycan dövlətinin siyasi, hərbi gücü ilə qələbə çalması, eyni zamanda Ali Baş Komandanın Laçında Azərbaycan bayrağını qaldırması ilə əlamətdar oldu.

Zahid Orucun sözlərinə görə, Şərq aləmində, eləcə də Qərb dünyasında birinci şəxs amili o qədər güclüdür ki, onun verdiyi hərbi-siyasi qiymətləndirmələr, açıqlamalar milli əhvali-ruhiyyəni, xalqın düşüncəsini təyin edir və formalaşdırır. Ölkəmizin rəhbərinin Şanxay Əməkdaşlıq Təşkilatına üzv ölkələrin sammitində çıxışı və Rusiya Prezidenti Vladimir Putinlə danışıqlardakı qiymətləndirmələrdən sonra, həm də Laçın yüksəkliyindəki açıqlaması dünyanın bu regionla maraqlanan qüvvələri ilə aparılan bir dialoq idi. 44 günlük müharibə dövründə də ölkə rəhbəri informasiya müharibəsinin önündə idi.

Komitə sədri deyir ki, çox xalqlar işğala, təcavüzə, soyqırımlara məruz qalıb, ancaq ayağa qalxaraq qalib gəldikdən sonra məğlub etdiyi düşmənə sülh təklif etmirlər. Amma Azərbaycan şanlı qələbəsindən sonra sülh gündəliyini formalaşdırdı: "Biz regionda yalnız azərbaycanlılar və ermənilər üçün deyil, bütövlükdə qafqazlılar üçün elə bir gələcək formalaşdırmaq istəyirik ki, tarixdə hər zaman ağrı ilə qeyd etdiyimiz bu toqquşmalar, nəhayət, aradan qalxsın".

Zahid Oruc bildirir ki, Ermənistan 1990-ci illərdəki müvəqqəti "qələbə"lərindən sonra Qarabağdan önə, 7 rayon üzrə irəli gələrək özləri üçün bir xəritə formalaşdırmışdılar. "Ohanyan xətti" sanki Ermənistanın sərhədi idi. Azərbaycan Ordusunun Kəlbəcərin Basarkeçər ərazisindən başlayaraq Zod, Gorus və Qafana qədər, oradan da Zəngilan boyunca yeni qazanılmış 600 kilometrlik sərhəd xətti ermənilərin mina müharibəsini sərhəd xətlərinə keçirərək yeni təmas bölgəsi yaratmaq, yeni Ohanyan istehkamları qurmaq üçün atdığı addımlara verdiyi cavab zərbələridir: "İlk dəfədir ki, hətta 44 günlük müharibədə tətbiq olunmamış yeni hərbi nailiyyətlər özünü göstərdi. Həm Hərbi Hava Qüvvələri, həm yeni formalaşdırılan və regionun böyük gücünə çevrilən komandolar, həm də xalqın böyük rəğbətini qazanan xüsusi təyinatlıların birgə əməliyyatı nəticəsində Azərbaycan 57-dən artıq hərbi mövqe, 48-ə yaxın strateji yüksəkliyi nəzarətə götürüb".

Deputatın fikrincə, nə qədər ki, delimitasiya və demarkasiya müəyyənləşməyib, deməli sərhəd yoxdur. O vurğulayır ki, Ermənistan müxtəlif beynəlxalq təşkilatlara şikayət edir, xarici aləmi Azərbaycanı mühakimə etməyə çağırır, eyni zamanda bizi aqressiyada ittiham etməyə çalışır: "Həqiqətən, sərhədlər mövcuddursa, göstərsinlər. Yox, bunu edə bilmirlərsə, reallıqla razılaşsınlar. Bizdə üç dövrün xəritələri var. Azərbaycana seçim qoymadıqlarından, sülh və siyasi danışıqlara gəlmədiklərindən Ali Baş Komandanın liderliyi altında silahlı qüvvələr sərhəd xəttini müəyyən edir, o sərhədlər şəhidlərimizin qanıyla çəkilir".

Deputat düşünür ki, Prezidentin açıqlaması təkcə coğrafi yüksəklikdən deyil, mənəvi, siyasi yüksəklikdən verilirdi. Bu, müxtəlif məsələlər üzrə parçalanma, fikir ayrılıqları, hətta bir sıra hallarda fikir ziddiyyətləri yaratmağa çalışan qüvvələrə böyük zərbə oldu. Son günlərdə xüsusən səfirlik, diplomatik korpus nümayəndəliklərinin üzərinə yeriyənlərə, dünya erməniçiliyini təşkilatlandırıb üzərimizə qaldırmağa çalışanlara "soyuq duş" effekti yaratdı. Unutmamalıyıq ki, biz zamanında ədalətin, haqqın tərəfində, həm də güclü olduğumuza görə qalib gəldik.

Zahid Oruc bildirir ki, 2020-ci il 10 noyabr razılaşmasına əsasən, erməni hərbi birləşmələri hələ də Azərbaycan ərazisindən çıxmayıb. Nə qədər ki, erməni hərbi qüvvələri bizim ərazimizdədir, Azərbaycan Ordusunun müəyyən hərbi birləşmələrinin də gələcəkdə Ermənistan ərazisində olmağa haqqı var: "Burada hansısa hücum əməliyyatından söhbət getmir. Nə qədər ki, Azərbaycan ərazisinə status adı ilə iddialar, seperatizm üçün cəhdlər olacaqsa, müharibənin Ermənistana doğru keçməsi də ədalətli sayılacaq. Axırıncı əməliyyatlardan sonra delimitasiya və demarkasiya danışıqları gerçək məzmun daşıyacaqsa, bu istiqamətdə addımlar atılacaqsa, həmçinin Zəngəzur dəhlizi açılacaqsa onda Azərbaycan və Ermənistan arasında irəli sürülmüş 5 şərt üzrə sülh müqaviləsi imzalanacaq. Şübhəsiz ki, artıq Vətən müharibəsindəki qələbəmiz siyasi masada da qanuniləşmiş olacaq.

Bununla da regionda yeni bir era başlayacaq və Azərbaycan da bunda maraqlıdır. Azərbaycan xalqı da, ilk növbədə bu prosesi aparan, millətin önündə gedən Prezident İlham Əliyev də sülh istəyir.

### Niyyətimiz sərhədlərin delimitasiyasının tezləşməsidir

Milli Məclisin İnsan hüquqları komitəsinin üzvü Fazil Mustafa qəzetimizə açıqlamasında deyib ki, Prezident İlham Əliyev tərəfindən ermənilərin əsassız ittihamlarına kifayət qədər dəqiq aydınlıq gətirildi. Deputat qeyd edir ki, Azərbaycanın Ermənistan ərazisinə daxil olması ilə bağlı Qərb və Şərqdə mənasız danışıqlar gedirdi: "Prezident aydın şəkildə açıqladı ki, biz sərhədləri tanımaq istəyirik, bütün torpaqların dəqiq xəritələr üzrə müəyyənləşməsini, sərhədlərin dəqiqləşməsini nəzərdə tuturuq. Əgər Ermənistanın sərhədi ora idisə, sərhəd xətti çəkib bunu göstərərdi".

Fazil Mustafa deyir ki, Azərbaycan Ordusu mümkün sərhədlərdə yerləşərək öz hüdudlarını qorumağa məcburdur, çünki işğalçı qüvvə ilə üz-üzədir. Bu qüvvə 30 il ərzində torpaqlarımızı işğal altında saxlayıb: "Niyyətimiz odur ki, sərhədlərin delimitasiyası tezləşdirilsin və bu proses nəticəsində iki dövlət arasında xəritələr əsasında sərhədlər müəyyənləşsin".

Deputat Prezidentin Laçın şəhərində iqtisadi, logistik layihələrlə bağlı açıqlamalarının cəmiyyətdə müsbət aura yaratdığını vurğulayır. Ümidverici addımlardan biri də dövlət başçısının gələn ilin sonuna Laçına bir qrup əhalinin qayıtması perspektivindən danışmasıdır. Bu da vətəndaşlar üçün olduqca aydın izah idi. Ölkə Prezidentinin Laçına səfərinə həm də mənəvi cəhətdən müəyyən sıxıntı, əzab çəkmiş Azərbaycan insanının ümidinin yenidən dirçəldilməsi kimi baxılmalıdır. Çünki Laçın da bizim üçün Şuşa qədər bir simvol idi. Laçın ilkin dövrdə itirdiyimiz əsas ərazilərimizdən biri idi və ermənilər oradan Qarabağla daha intensiv əlaqə saxlaya bilirdilər. Ermənilərin əsas yolu Laçından keçirdi. İndi Laçının Azərbaycanın nəzarətində olmasını Prezident əyani addımları, qətiyyətli duruşu ilə göstərdi. Bu, böyük hadisə idi.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Daxili işlər naziri Türkiyədə təhsil almaq üçün seçilən polis əməkdaşlarını qəbul edib



"Azərbaycan Respublikası hökuməti və Türkiyə Respublikası hökuməti arasında polis təhsili sahəsində əməkdaşlıq haqqında" protokola əsasən, 2022-2023-cü tədris ilində Türkiyə Milli Polis Akademiyasının Polis Rəisləri Təlim Mərkəzində təhsil almaq üçün Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə (DİN) 20 yer ayrılıb.

Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, nazir general-polkovnik Vilayət Eyvazovun göstərişinə əsasən, DİN-in "Avtomatlaşdırılmış kadr informasiya sistemi" vasitəsilə şərtlərə uyğun olaraq bakalavr ali təhsil dərəcəsinə malik, türk dilini yaxşı bilən, fiziki hazırlıqlı, geniş dünyagörüşlü, müasir informasiya texnologiyaları ilə işləməyi bacaran 20 gənc əməkdaşı seçilərək sənədləri qardaş Türkiyənin müvafiq təhsil müəssisəsinə göndərilib.

Bu münasibətlə seçilmiş əməkdaşları qəbul edən daxili işlər naziri Vilayət Eyvazov onları təbrik edərək iki qardaş ölkənin daxili işlər nazirlikləri arasındakı əməkdaşlığın yüksək səviyyədə olmasını məmnunluqla qeyd edib, təhsil alacaqları dövrdə türkiyəli həmkarlarının təcrübələrindən yararlanmağı, öz üzərilərində daim işləməyi, biliklərini və fiziki hazırlıq səviyyələrini artırmalarını tövsiyə edib. O, əmin olduğunu bildirib ki, təhsil alacaqları müddətdə onlar Azərbaycan polisini, xalqımızı şərəflə təmsil edəcəklər.

# Prokurorluq orqanlarının xarici tərəfdaşları ilə beynəlxalq əməkdaşlığı davam etdirilir

Korrupsiyaya qarşı mübarizənin transmilli xüsusiyyətləri və ona qarşı qlobal mübarizənin labüdlüyü nəzərə alınmaqla prokurorluq orqanlarının beynəlxalq təşkilatlarla, habelə xarici ölkələrin bu sahədə ixtisaslaşmış qurumları ilə əməkdaşlığı davam etdirilir.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, belə tədbirlərdən biri kimi, cari il sentyabrın 23-də Özbəkistan Respublikasının paytaxtı Daşkənd şəhərində hibrid formatda keçirilmiş "Korrupsiyaya qarşı mübarizə və şəffaflıq" adlı II Beynəlxalq Daşkənd Forumunda Azərbaycan Respublikasının Baş prokurorunun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Nazim Rəcəbov iştirak edib.

Tədbirdə Birləşmiş Millətlər Təşkilatının (BMT) Narkotiklər və Cinayətkarlığa qarşı Mübarizə İdarəsi (UNODC), BMT-nin İnkişaf Proqramı (UNDP), Dünya Bankı, Beynəlxalq Antikorrupsiya Akademiyası (IACA), Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) kimi beynəlxalq təsisatların, Amerika Birləşmiş Ştatları, Cənubi Koreya, Özbəkistan, Latviya, Malayziya və digər ölkələrin dövlət qurumlarının, habelə bir sıra tanınmış qeyri-hökumət təşkilatlarının rəhbər vəzifəli şəxsləri və digər nümayəndələri iştirak ediblər. Həmin beynəlxalq forumun müzakirə sessiyasında çıxış edən Nazim Rəcəbov ölkəmizdə mövcud olan qəti siyasi iradəyə uyğun olaraq korrupsiyaya qarşı mübarizə sahəsində əldə edilən qabaqcıl təcrübəni iştirakçılarla bölüşərək aparılmış hüquqi və institusional islahatlar, ardıcıl və sistemli preventiv tədbirlər və digər bu kimi nailiyyətlər barədə iştirakçılara geniş məlumat verib, qeyd edilən sahədə milli yol xəritəsi rolunu oynayan "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı"nın müstəsna əhəmiyyəti xüsusi vurğulanıb.

Bundan başqa, çıxışda ölkəmizin Avropa Şurasının Korrupsiyaya qarşı Dövlətlər Qrupu (GRECO) və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) kimi nüfuzlu beynəlxalq təşkilatlarla qurulmuş sıx əməkdaşlıq əlaqələri və xüsusi müsadirə institutunun inkişafı sahəsində icra edilən "Tvininq" layihəsi çərçivəsində görülmüş işlərdən, habelə digər aktual məsələlərdən geniş bəhs olunub.

Qarşılıqlı müzakirələr formatında davam edən tədbirdə tərəfdaş ölkələrlə əməkdaşlığın daha da genişləndirilməsi, korrupsiyaya qarşı mübarizə sahəsində qabaqcıl beynəlxalq təcrübənin mütəmadi izlənilməsi, habelə gələcəkdə daha səmərəli nəticələrə nail olmaq üçün mövcud maneələrin birgə səylərlə aradan qaldırılması kimi müxtəlif mövzular ətrafında fikir mübadiləsi aparılıb.

# Avropa Parlamentinin üzvləri AZPROMO-da olub

Avropa Parlamentinin Kənd, dağlıq və ucqar ərazilər və ağıllı kəndlər üzrə interqrupunun sədri Frank Boqoviçin rəhbərlik etdiyi nümayəndə heyəti İxracın və İnvestisiyaların Təşviqi Agentliyində (AZPROMO) olub.

AZPROMO-dan AZƏRTAC-a bildirilib ki, agentliyin rəhbəri Yusif Abdullayev ölkəmizin biznes və investisiya imkanları, hazırlanan Milli İxrac Strategiyası barədə məlumat verib, AZPROMO-nun İnvestisiya Təşviqi Agentliklərinin Dünya Assosiasiyasının (WAIPA) üzvü olduğunu diqqətə çatdırıb. Görüşdə kənd təsərrüfatı, turizm və enerji sektorlarında investisiya imkanları barədə fikir mübadiləsi aparılıb, Azərbaycanda "ağıllı" kəndlərin qurulması layihəsi qarşı tərəfin böyük marağına səbəb olub.

# Daha bir qrup ukraynalı uşaq Azərbaycana gətirildi



Ukraynadakı vəziyyətlə əlaqədar valideynlərindən birini itirən daha bir qrup ukraynalı uşaq Azərbaycana gətirilib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Sosial Xidmətlər Agentliyinin təşkilatçılığı ilə ölkəmizə gətirilən 29 azyaşlı uşaq düşərgələrinə yerləşdiriləcək.

Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, uşaqlar Bakı və Qəbələ şəhərlərində təşkil olunan 15 günlük düşərgədə sosial reabilitasiya keçəcəklər. Düşərgə müddətində onlar mütəxəssislər tərəfindən müxtəlif reabilitasiya tədbirlərinə cəlb olunacaqlar.

Peşəkar psixoloqlar tərəfindən təşkil olunan fərdi konsultasiyalar, qrup terapiyaları, meditasiya və yoqa məşğələləri, eyni zamanda psixo-sosial təlimlər, ustad dərsləri vasitəsilə azyaşlıların emosional vəziyyətlərinin stabilləşməsi, eləcə də cəmiyyətə inteqrasiyaları təmin ediləcək.

Düşərgə iştirakçıları ingilis dili kursları vasitəsilə dil biliklərinin artırılması imkanı da əldə edəcəklər.

Bu müddət ərzində uşaqların asudə vaxtının səmərəli təşkil olunması məqsədilə tarixi yerlərə, həmçinin muzeylərə ekskursiyalar təşkil olunacaq, müxtəlif mövzularda komanda işləri görüləcək.



# Ölkəmiz regionda sülhün və inkişafın qarantıdır

*Əvvəli 1-ci səh.*

Artıq qələbə ilə tamamlanan yeni bir dövr öz sözünü deyir. Müxtəlif pozucu əməllərlə regionun inkişafına mane olmaq istəyən bədxahlar isə tarixi fürsətləri itirməklə ən böyük ziyanı özlərinə vurmuş olurlar.

Azərbaycan Prezidenti İlham Əliyevin sentyabrın 21-də Laçın rayonuna səfəri bir çox tarixi məqamları ilə yadda qaldı. Bu səfər dövlət rəhbərimizin Vətən müharibəsindəki qələbəmizdən sonra Qarabağda və Şərqi Zəngəzurda aparılan quruculuq-bərpa işlərini, eləcə də regionda yaranmış yeni reallıqlar fonunda baş verən prosesləri tam nəzarətdə saxladığını, yüksək əzmkarlıqla idarə etdiyini bir daha göstərdi.

## "Bu bayraq burada əbədi dalğalanacaqdır"

Azərbaycan Prezidenti səfər zamanı Kəlbəcər-Laçın avtomobil yolunun 35-ci kilometrliyində Laçın Beynəlxalq Hava Limanına 2400 metr uzunluğunda giriş tunelinin inşası ilə tanış oldu, "Laçın" Qovşaq Yarımstansiyasının təməlqoyma mərasimində iştirak etdi və Laçın şəhərində Azərbaycan Bayrağını ucaltdı."Bu, tarixi hadisədir. Laçın şəhərinin azad edilməsi həmişə tarixdə qalacaq. Bu gün Laçın şəhərində, şəhərin mərkəzində, mərkəzi küçədə Azərbaycan Bayrağını qaldırmışam. Bu bayraq burada əbədi dalğalanacaqdır" - dedi dövlət rəhbərimiz.

Xatırladaq ki, Azərbaycan Prezidentinin tapşırığı ilə avqustun 26-dan Laçına bir neçə qrup göndərilib, onlar bütün yaşayış fondunun təhlilini, uçotunu aparır, dəymiş ziyan hesablanır. Eyni zamanda Laçının yenidən qurulması ilə bağlı təxirəsalınmaz işlərin görülməsi üçün təkliflər hazırlanır. İlk növbədə Laçın şəhəri, Zabux və Sus kəndləri yenidən qurulacaq. Şəhərin vaxtilə - 1980-ci illərdə tərtib edilmiş baş planı hazırda təhlil edilməkdədir. Bura müəyyən əlavələr olunacaq və Laçın şəhərinin bərpası bu plan əsasında aparılacaq. Azərbaycan Prezidenti bildirdi ki, laçınlıların birinci qrupu Laçın şəhərinə gələn ilin sonuna qədər qayıda bilərlər: "Mən buna ümid edirəm və əlimdən gələni edəcəyəm ki, biz buna nail olaq, tezliklə Laçın şəhərini bərpa edək. Biz bütövlükdə Laçın rayonunu və bütün başqa rayonları bərpa edəcəyik".

Azərbaycan geniş imkanlar ölkəsidir. Hazırda cəmiyyət həyatının müxtəlif sahələrində köklü islahatlar uğurla davam edir. Ölkəmiz yenilənir. Bu yenilik ruhu isə hər yerdə, hər an özünü hiss etdirir və insanlarımızın arzuları ilə üst-üstə düşür. İlk baxışdan inanılmaz görünən çox hədəflərə nail olmuşuq. 2020-ci il 27 sentyabr günündən başlanan çətin yolun sonundakı Qələbə bunlardan ən mühümü və tarixi oldu. Prezident İlham Əliyevin hər diplomatik uğuru, hər möhtəşəm sosial-iqtisadi nailiyyəti, ölkəmizin güclənən mövqeyi, beynəlxalq aləmdə yüksələn nüfuzu bizi addım-addım bu qələbəyə apardı.

Böyük Zəfər qazandıq. Bu, xalqımızın həyatında insanların taleyini dəyişən, tarixini yeni bir səhifədən başlayan bir qələbə oldu. Bu, bizim şanlı Vətən müharibəmiz, şanlı tariximizdir.

## Ermənistanın cinayətlərinə göz yumulurdu

Azərbaycan Prezidenti tarixi çıxışında bir çox məqamlara aydınlıq gətirdi. Xüsusi vurğulandı ki, Laçın və Kəlbəcər rayonlarının bir hissəsi Vətən müharibəsi dövründə azad edilmişdi, Ermənistan kapitulyasiya aktına imza atmışdı. Lakin Ermənistanı Xankəndi ilə birləşdirən avtomobil yolu şəhərin ortasından keçdiyi üçün Laçın şəhəri nəzarətdən kənarda qalmışdı. Noyabrın 9-da aparılan danışıqlar nəticəsində Prezident İlham Əliyevin təkidi ilə alternativ yolun çəkilişi sənəddə təsbit edildi və razılaşmalar 3 il ərzində nəzərdə tutulsa da, Azərbaycan bu razılaşmaları sürətlə başa çatdıraraq cəmi 1 il 8 ayda icra etdi. Yəni alternativ yol 1 il 8 aydan sonra artıq hazır idi. Bu, həm də ölkəmizin sosial-iqtisadi qüdrətini, öhdəliklərə sadiqliyini, eyni zamanda regionda daimi sülh, abadlıq, rifah arzusunu göstərir. İşğal dövründə şəhər və kəndlərimizi viran qoymuş Ermənistandan Azərbaycanın bir əsas fərqi də budur.

Səfər zamanı Laçındakı vəziyyətlə yaxından tanış olan Prezident İlham Əliyev ermənilərin burada da törətdikləri vandalizm əməllərini diqqətə çatdırdı. Eyni zamanda onların Laçında qanunsuz məskunlaşma apardıqlarına, Ermənistandan, daha çox isə xaricdən - Suriya və Livandan erməniəsilli insanları gətirərək burada yerləşdirdiklərinə toxundu. Bunun hərbi cinayət olduğunu və bütün beynəlxalq konvensiyalarda təsbit edildiyini, eləcə də Ermənistanın belə bir cinayətinin dünya ictimaiyyətinin gözü qarşısında baş verdiyini vurğuladı: "Dünya ictimaiyyəti, beynəlxalq təşkilatlar, o cümlədən bu məsələ ilə birbaşa məşğul olan Minsk qrupunun həmsədrləri buna, sadəcə olaraq, göz yumurdular. Halbuki dəfələrlə bu mənzərəni görürdülər, dəfələrlə. Bax bu yolla Ermənistandan Qarabağa, Qarabağdan Ermənistana gedərək görürdülər ki, burada qanunsuz məskunlaşma aparılır. Görürdülər ki, Azərbaycan toponimləri sıradan çıxarılır. Görürdülər ki, bizim tarixi, qədim Azərbaycan torpağı olan Laçın erməniləşdirilir, burada qanunsuz məskunlaşma aparılır. Ancaq buna göz yumurdular, sanki bununla razılaşırdılar. Biz Azərbaycan xalqı isə bununla heç vaxt razılaşa bilməzdik. Mən hər dəfə deyirdim ki, heç vaxt imkan verə bilmərik bizim torpağımızda ikinci erməni dövləti yaradılsın".

Xüsusi strateji əhəmiyyətə, çətin relyefə, ağır, soyuq iqlimə malik olan Laçın və Kəlbəcər rayonlarının bir güllə belə atılmadan, insan itkilərinə yol verilmədən azad edilməsi xüsusi tarixi əhəmiyyət daşıyır. 1992-ci və 1993-cü illərdə bu strateji ərazilərin o dövrdə hakimiyyətdə olanların ciddi yanlışları, xəyanətləri hesabına işğalı Azərbaycanın məğlubiyyətində, digər rayonlarımızın ard-arda zəbt olunmasında çox böyük rol oynamışdı. Prezident İlham Əliyevin də çıxışında qeyd edildiyi kimi, Laçın və Kəlbəcər rayonlarının işğalı nəticəsində faktiki olaraq Ermənistanla Qarabağ arasında coğrafi bağlantı yaradılmışdı. Beləliklə, ermənilər öz arzularına çatmışdılar. "Onlar hesab edirdilər ki, bu torpaqlarda əbədi yaşayacaqlar. Hesab edirdilər ki, buna nail olacaqlar. Görürdülər ki, onlara himayədarlıq edən bir neçə ölkə, onların cinayətlərinə göz yuman, bu məsələ ilə bilavasitə məşğul olan təşkilat buna biganə qaldı. Sanki onlara bəraət qazandırırdılar və daha da azğınlaşırdılar. İşğalın ilkin mərhələsində bizim bütün yaşayış məntəqələrimizi dağıtmışdılar. Ancaq sonra hiss etdilər ki, artıq bunların cinayəti cəzasız qalır, burada qanunsuz inşaat işlərinə başladılar, o cümlədən Laçın şəhərində, Zabux və Sus kəndlərində".

## "Heç kim bu torpaqları bizə bağışlamayıb"

Azərbaycan Prezidenti 26 avqust 2022-ci ildə Laçın şəhəri ilə birlikdə Zabux və Sus kəndlərinin də işğalçılardan azad edilməsini əlamətdar və tarixi hadisə kimi qiymətləndirdi. Bildirdi ki, biz şəhidlərimizin canı, qanı bahasına, qəhrəman əsgər və zabitlərimizin fədakarlığı sayəsində bu gün bu torpaqlardayıq. Heç kim bu torpaqları bizə bağışlamayıb, heç kim bu torpaqları bizə danışıqlar yolu ilə qaytarmayıb. Beynəlxalq təşkilatlar, o cümlədən BMT, onun Təhlükəsizlik Şurası, ATƏT işğalçı dövləti məcbur edib Azərbaycan torpaqlarından çıxarmalı, Ermənistana qarşı sanksiyalar tətbiq etməli idi. Amma bunların heç biri olmadı. Əksinə, bu işğalı əbədiləşdirmək üçün Ermənistan, dünya erməniliyi və onların xaricdəki havadarları birləşərək belə çirkin niyyəti həyata keçirmək istəyiblər: "Mən isə həmişə deyirdim ki, Azərbaycan xalqı buna heç vaxt razı olmayacaq. Həmişə deyirdim ki, məsələ sülh yolu ilə həll olunmasa, bunu hərb yolu ilə həll edəcəyik və etdik. Cəmi 44 gün ərzində Ermənistan ordusunu darmadağın etdik. Alınmaz qala sayılan Şuşanı azad etdik. Cəbrayılı, Füzulini, Zəngilanı, Qubadlını, Hadrutu, Xocavəndi döyüş meydanında azad etdik. Düşmən diz çökdü və Laçını, Kəlbəcəri, Ağdamı tərk etməyə məcbur oldu. Bu gün Laçın şəhərində olarkən haqlı olaraq qürur hissi keçirirəm ki, qədim Azərbaycan torpağında bizim üçrəngli bayrağımız dalğalanır".

## Azərbaycan müharibədən dərhal sonra sülh təklif etdi

Ali Baş Komandan qeyd etdi ki, Ermənistan hələ 2016-cı ilin Aprel döyüşlərindən düzgün nəticəyə gəlib öz xoşu ilə torpaqlarımızdan çıxsaydı, İkinci Qarabağ müharibəsi olmazdı. Onlar həmin döyüşlərdəki biabırçı məğlubiyyətlərindən sonra qorxuya düşüb qoşunları Azərbaycan ərazilərindən çıxarmağa söz versələr də, sonradan bu vədlərinə əməl etmədilər. İki il sonra 2018-ci ildə Naxçıvanda həyata keçirilən "Günnüt" əməliyyatı da ermənilərə dərs olmadı. Nəhayət, İkinci Qarabağ müharibəsi Ermənistan ordusunun tamamilə darmadağın edilməsi ilə nəticələndi və müzəffər Azərbaycan Ordusu öz doğma torpaqlarını azad etdi. Azərbaycan Prezidenti çıxışında bir məqama da toxunaraq dedi: "Biz müharibədən dərhal sonra onlara sülh təklif etdik. Bu da dünya hərb tarixində bəlkə də nadir hallardan biridir ki, 30 il ərzində torpağımız işğal altında olsun, insanlarımız əzab-əziyyət içində yaşasın, tarixi-dini abidələrimiz dağıdılsın, şəhərlərimiz dağıdılsın, milyondan çox mina döşənsin, buna baxmayaraq, biz sülh təklif etdik. Ancaq yenə də görürük ki, Ermənistan sülh istəmir, yenə də revanşist fikirlərlə yaşayır. Biz təklif etdik ki, delimitasiya prosesinə start verək. Bunu təxminən bir ildən çox müddət ərzində uzatdı. İndi isə bu proses başlasa da, sırf formal xarakter daşıyır, mahiyyət üzrə heç bir danışıqlar aparılmır, xəritələr üzrə heç bir müzakirə aparılmır. Biz bütün xəritələri hazırlamışıq. Həm XX əsrin xəritələrini, həm əvvəlki dövrün xəritələrini və delimitasiya işləri bu xəritələr üzrə aparılmalıdır".

## Ermənistan vaxt uzatmağa çalışır

Prezident İlham Əliyev Azərbaycanın Ermənistanla sülh müqaviləsini imzalamaq üçün 5 prinsip təklif etdiyini, onların sözdə bu təklifləri qəbul etsələr də, əməllərində görünmədiyini xatırlatdı. Dövlət rəhbərimizin fikrincə, Ermənistanın belə davranışı yenə də vaxtı uzatmaq taktikasıdır. Ermənistanın 2020-ci il noyabrın 10-da imzaladığı kapitulyasiya aktına əsasən, erməni silahlı qüvvələri Qarabağdan çıxarılmalı olsa da, hələ tam çıxarılmayıb. Ermənistan götürdüyü öhdəliyə görə Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikasının birləşməsini təmin edən dəhliz verməli olsa da, indiyə kimi hətta dəhlizin marşrutu belə dövlətimizə deyilməyib və bu istiqamətdə heç bir praktiki iş aparılmayıb. Azərbaycan isə Ermənistandan fərqli olaraq bu məsələdə də üzərinə düşən işləri sürətlə yerinə yetirərərək həm dəmir yolunu, həm avtomobil yolunu Zəngilana qədər çəkib. Gələn ilin sonunda bu yollar Ermənistan sərhədinə qədər gətiriləcək. Qarşı tərəfin ərazisində isə kommunikasiyalarla bağlı heç bir iş aparılmır və belə məlum olur ki, onlar bu işi görmək istəmir, sadəcə, vaxt uzatmağa üstünlük verirlər.

Prezident İlham Əliyev bildirdi ki, Vətən müharibəsi başa çatdıqdan sonra da Ermənistan Azərbaycana qarşı hərbi təxribatlar törədir. Bildirdi ki, təkcə Laçın rayonu ərazisində 1400-dən çox yeni mina döşənib və bu minalar 2021-ci ildə basdırılıb. Ermənistanın Azərbaycana qarşı bu cür açıq terror hərəkətləri nəticəsində 240-dan çox vətəndaşımız mina partlayışı ilə ya həlak olub, ya da ağır yaralanıb. "Yəni bizə qarşı müharibə davam edir, bizim insanlarımız həlak olur. Biz buna imkan verə bilərikmi? Heç vaxt buna imkan verə bilmərik. Ermənistanı dəfələrlə xəbərdar etmişik, bu çirkin əməllərdən əl çəksin, peşman olacaq".

## Azərbaycan Ordusu öz torpağındadır

Ali Baş Komandan ümid etdiyini bildirdi ki, Ermənistanın sentyabrın 13-də törətdiyi növbəti təxribatlara ordumuzun qətiyyətli cavabı, nəhayət, onlara dərs olacaq. Düşmən bu cavabla bir daha gördü ki, Azərbaycanı heç kim və heç nə dayandıra bilməz. Ordumuz öz torpağındadır və öz ərazisini qoruyur. Sərhəd boyunca əldə etdiyimiz mövqelər isə imkan verir ki, istənilən erməni təxribatını qabaqcadan görək və lazımi tədbirlər görək. Azərbaycan Prezidenti dedi: "Biz ta Murov dağından Araz çayına qədər Azərbaycan-Ermənistan sərhədində əlverişli mövqelərdəyik. Bu mövqelər bizə həm hərbi üstünlük verir, həm böyük əraziyə vizual nəzarət imkanı yaradır, o cümlədən önəmli kommunikasiya xətlərinə nəzarət etməyə imkan verir və biz artıq bu bölgələrdə yerləşirik. Biz otuz il bu sərhədlərdə olmamışıq.

İkinci Qarabağ müharibəsi başa çatandan sonra biz sərhədlərə çıxdıq. Əgər Ermənistan bizi ittiham etmək istəyirsə ki, onların ərazisinə girmişik, bunun heç bir əsası yoxdur. Birincisi, əgər sərhəd onların dediyi yerdə idisə, sərhədi quraydılar, sərhəd xətlərini inşa edəydilər, kommunikasiyaları, mühəndis işlərini quraydılar. Onlar hesab edirdilər ki, bütün Qarabağ və Zəngəzur onlara qalacaq. Məhz buna görə Azərbaycan-Ermənistan sərhədində heç bir iş görməmişdilər. Yəni bizim sərhədimizin delimitasiyası keçirilmədən heç kim deyə bilməz sərhəd haradan keçir".

Azərbaycan sərhədlərin delimitasiyası məsələsi üzrə müzakirələrə hər zaman hazırdır və bu məsələ üzrə yaradılmış komissiyaların işinə məsuliyyətlə yanaşır. Bunu dövlət rəhbərimiz bir daha bəyan etdi. Bütün xəritələr toplanıb. XIX əsrə, XX əsrə, ondan əvvəlki dövrə aid olan xəritələr Azərbaycanda var və həmin xəritələr kimin hansı torpaqda yerləşdiyini göstərir. Ona görə də delimitasiya aparılmadan Azərbaycanı heç kim ittiham edə bilməz: "Biz müharibə istəmirik, istəmirdik. Məhz buna görə 30 ilə yaxın müddət ərzində danışıqlar aparırdıq. Məhz ona görə İkinci Qarabağ müharibəsindən sonra Ermənistanla sülh müqaviləsi imzalamaq istəyirik. Ancaq əgər düşmən bizə qarşı təxribat törədəcəksə, layiqli cavabını verəcəyik. Bu gün Ermənistan yaxşı fikirləşməlidir. Bizimlə heç kim ultimatum dili ilə danışa bilməz və heç kimə də bel bağlamasınlar".

Azərbaycan dövlətini tarixinin ən qüdrətli dövrünə gətirib çıxarmış Prezident İlham Əliyevi belə güclü, qətiyyətli edən həm də xalqımızın iradəsi, haqq yolunda öz Liderinə verdiyi dəstəkdir. Bu güc, bu dəstək, bu qarşılıqlı inam və güvən sayəsində Azərbaycan bütün milli hədəflərinə çatacaqdır.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Müstəqillik dövrünün ən böyük büdcəsi

## 2023-cü ildə də sosial-iqtisadi inkişafın dayanıqlılığı təmin olunacaq

Gələn il respublikamızda icmal büdcənin gəlirləri 32 milyard 939,4 milyon manat səviyyəsində proqnozlaşdırılır. İcmal büdcənin xərcləri isə 37 milyard 883 milyon manat nəzərdə tutulur ki, bu da 2022-ci ilin yenidən baxılmış proqnozu ilə müqayisədə 2 milyard 342,1 milyon manat və ya 6,6 faiz çoxdur. Növbəti ildən başlayaraq icmal büdcənin tərkibinə İcbari Tibbi Sığorta Fondunun gəlirləri və xərcləri də daxil ediləcək. Bu barədə məlumatlar 2023-cü ilin dövlət və icmal büdcələrinin ilkin göstəricilərinə dair açıqlamada yer alıb.

### Qlobal çağırışlar və reallıqlar nəzərə alınıb

Dövlət büdcəsi ölkənin xərcləri və onların ödənilməsi mənbələri üzrə illik maliyyə planıdır. Məqsədi ölkənin iqtisadi, sosial və digər strateji proqramlarının maliyyələşdirilməsini, dövlətin funksiyalarının həyata keçirilməsi üçün qanunvericiliklə müəyyən edilmiş qaydada maliyyə vəsaitinin toplanmasını və istifadəsini təmin etməkdir. Büdcə həm də iqtisadi-sosial inkişaf proseslərini tənzimləyən maliyyə vasitəsidir. Ona görə də dövlət büdcəsinin layihəsinin və bununla bağlı digər məsələlərin müzakirəsi hər bir ölkədə ictimaiyyət tərəfindən diqqətlə izlənilir.

"Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununa və "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi layihəsinin, habelə ölkənin iqtisadi və sosial inkişaf konsepsiyasının və ortamüddətli proqnoz göstəricilərinin hazırlanması barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 28 yanvar tarixli Sərəncamına uyğun olaraq 2023-cü il dövlət büdcəsinin və icmal büdcənin layihəsi, eləcə də sonrakı üç il üçün icmal büdcənin göstəriciləri və büdcə zərfinə aid digər sənədlər Maliyyə Nazirliyi tərəfindən Nazirlər Kabinetinə təqdim olunub. Sentyabrın 22-də isə Baş nazir Əli Əsədovun sədrliyi ilə Nazirlər Kabinetinin 2023-cü il üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələri və sonrakı üç il üçün icmal büdcənin göstəricilərinin, 2023-cü il və növbəti üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyasının və proqnoz göstəricilərinin müzakirəsinə həsr olunan geniş iclası keçirilib.

Qeyd edək ki, qlobal pandemiya şəraitində 2020-ci ildə ölkə iqtisadiyyatında müşahidə olunan iqtisadi azalma ötən ildən başlayaraq iqtisadiyyatın sürətli bərpa prosesi ilə əvəzlənib. Bu müsbət artım dinamikası 2022-ci ildə də davam etməkdədir. Makroiqtisadi göstəricilərdə müşahidə edilən pozitiv meyillər dövlət və icmal büdcələrinin icrasında da özünü göstərir. Bununla belə, qlobal proseslər, pandemiya ilə bağlı qeyri-müəyyənliklərin qalması Azərbaycan iqtisadiyyatı qarşısında da bir sıra yeni çağırışlar formalaşdırıb. Eyni zamanda bu gün Azərbaycan dövlətinin prioritetlərinin bir istiqaməti işğaldan azad olunmuş şəhər və kəndlərin bərpasına, bu ərazilərdə dayanıqlı məskunlaşmanın təmin edilməsinə yönəldilib.

2023-cü il və sonrakı üç ilin icmal və dövlət büdcələrinin layihələri qeyd olunan çağırışlar, eləcə də ortamüddətli dövr üzrə makroiqtisadi proqnoz göstərcilər nəzərə alınmaqla hazırlanıb. Növbəti ilin dövlət büdcəsinin tərtibi zamanı "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın həyata keçirilməsi üçün zəruri maliyyə təminatının yaradılması ilə yanaşı, ölkənin müdafiə və təhlükəsizlik qabiliyyətinin daha da gücləndirilməsi, dövlətin əsas funksiyalarının yerinə yetirilməsi diqqət mərkəzində saxlanılıb.

### Gəlir və xərclər artır

2023-cü ildə dövlət büdcəsinin gəlirləri 30 milyard 720,7 milyon manat proqnozlaşdırılır ki, bu da 2022-ci ilin dürüstləşdirilmiş proqnozu ilə müqayisədə 1 milyard 522,9 milyon manat və yaxud 5,2 faiz, 2021-ci ilin icra göstəriciləri ilə müqayisədə 4 milyard 324,4 milyon manat və yaxud 16,4 faiz çoxdur. Növbəti ildə dövlət büdcəsinin xərcləri 2022-ci ilin dürüstləşdirilmiş proqnozu ilə müqayisədə 996,2 milyon manat və ya 3,1 faiz artımla 33 milyard 300 milyon manat proqnozlaşdırılır ki, bu da 2021-ci ilin icra göstəriciləri ilə müqayisədə 5877,6 milyon manat və yaxud 21,4 faiz çoxdur. 2023-cü ildə büdcədə xam neftin bir barelinin orta illik ixrac qiymətinin 50 ABŞ dolları səviyyəsində götürülməsi nəzərdə tutulur.

Mövcud reallıqlar və çağırışlar nəzərə alınmaqla 2023-cü il üzrə xərc siyasətində işğaldan azad edilmiş ərazilər üzrə bərpa və yenidənqurma işləri, Böyük qayıdışın təmin edilməsi, ərazilərdə müasir infrastrukturların, o cümlədən hərbi infrastrukturların tikintisi yer alıb. Eyni zamanda ölkənin müdafiə qabiliyyətinin və milli təhlükəsizliyinin daha da gücləndirilməsi, əməyin ödənişi, sosial müdafiə və sosial təminat üzrə islahatların davam etdirilməsi, inflyasiya təzyiqi nəzərə alınmaqla sosial dəstək tədbirlərinin həyata keçirilməsi, səhiyyə xərclərinin, o cümlədən əhalinin dövlət büdcəsinin vəsaiti hesabına icbari tibbi sığortalanması, COVID-19 pandemiyasının yayılmasına qarşı mübarizə və profilaktik tədbirlərin maliyyə təminatı, təhsil xərcləri prioritet istiqamətlər olacaq. O cümlədən kommunikasiya texnologiyalarının tətbiqi üzrə artan tələbatın qarşılanması, aqrar sektorun stimullaşdırılması, kənd təsərrüfatının aparıcı sahələrinin, prioritet şəkildə buğda istehsalının inkişaf etdirilməsi üçün maliyyə dəstəyi və subsidiyaların ayrılmasının artırılması, ölkənin tranzit potensialının daha dolğun istifadəsi, trans-Xəzər dəhlizi üzrə daşınmaların nəqliyyat logistika infrastrukturunun təkmilləşdirilməsi üzrə layihələrin dəstəklənməsi növbəti ilin büdcə xərclərində diqqət yetirilən istiqamətlər olacaq.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bərpası, işğaldan azad olunmuş ərazilərə Böyük qayıdışın təmin edilməsi üçün şəhər və kəndlərin yenidən qurulması, həmin ərazilərdə müasir infrastrukturların yaradılması məqsədilə 2023-cü ilin dövlət büdcəsindən 3 milyard manat vəsaitin ayrılması proqnozlaşdırılır. Bu xərclərin növbəti ildə dövlət büdcəsi xərclərində xüsusi çəkisi 9 faiz təşkil edəcək.

Əhalinin, şəhid ailələrinin, qazilərin sosial müdafiəsinin və sosial təminatının gücləndirilməsi, aztəminatlı əhalinin sosial rifahının yaxşılaşdırılması daim dövlət başçısının diqqət mərkəzindədir. Bu istiqamətdə islahatların davam etdirilməsi, inflyasiya təzyiqi nəzərə alınmaqla həssas əhali qruplarına sosial dəstək tədbirlərinin həyata keçirilməsi üçün 2023-cü il üzrə dövlət büdcəsinin sosialyönlü xərcləri cari illə müqayisədə 9,2 faiz çox nəzərdə tutulub.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin müdafiə potensialının və ordumuzun maddi-texniki bazasının möhkəmləndirilməsi, onun müasir hərbi texnika və silah-sursatla təchizatı və hərbçilərin sosial-məişət və xidmət şəraitinin yaxşılaşdırılması gələn ildə də əsas xərc istiqamətlərindən biri olacaq. Növbəti il müdafiə və milli təhlükəsizlik məqsədilə ayrılacaq vəsaitin həcmi 5 milyard 320,1 milyon manat proqnozlaşdırılır ki, bu da 2022-ci illə müqayisədə 235,3 milyon manat və ya 4,6 faiz çoxdur. Gələn il üçün müdafiə və milli təhlükəsizlik məsələləri ilə bağlı ayrılması proqnozlaşdırılan büdcə vəsaiti ümumi büdcə xərclərinin 16 faizini təşkil edəcək.

Gəlir və xərclər göstərir ki, 2023-cü ilin dövlət büdcəsi Azərbaycanın dövlət müstəqilliyi ərzində hələlik ən böyük büdcəsi olacaq. Beləliklə, növbəti ildə də qarşıda duran bütün prioritet vəzifələr uğurla yerinə yetiriləcək.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***



# Jurnalistlərin VIII qurultayının iştirakçılarının Azərbaycan Prezidentinə müraciəti

Xəbər verildiyi kimi, sentyabrın 24-də Azərbaycan jurnalistlərinin VIII qurultayının iştirakçıları Prezident İlham Əliyevə müraciət ünvanlayıblar.

AZƏRTAC müraciəti təqdim edir:

"Möhtərəm cənab Prezident!

Sizi Azərbaycan jurnalistlərinin VIII qurultayının iştirakçıları adından salamlamaqdan məmnunluq duyuruq.

Azərbaycan jurnalistikası xalqımızın çoxəsrlik adət-ənənələrinin yaşadılmasında, müstəqillik ideyasının təşəkkülündə fəal rol oynamış, tarixi missiya yerinə yetirmişdir. Əsası böyük mütəfəkkir Həsən bəy Zərdabi tərəfindən qoyulmuş mətbuatımız insanlarımızı müqəddəs amallar uğrunda mübarizəyə səsləmiş, həmrəyliyimizin dövlətçilik təfəkkürü ilə vəhdətini təmin etmişdir. Müasir müstəqil Azərbaycan Respublikasının qurucusu Ulu Öndər Heydər Əliyev çıxışlarında, media təmsilçiləri ilə görüşlərində, imzaladığı dövlət sənədlərində mətbuatımızın bu missiyasını, milli şüurun oyanışına, milli özünüdərk proseslərinə töhfəsini yüksək qiymətləndirmişdir. O, jurnalistikanı dövlət idarəçiliyində mühüm ictimai institut olaraq görmüş, bu yanaşmanı idarəçilik modelinə, demokratik, dünyəvi dövlət quruculuğunun ayrılmaz tərkib hissəsinə çevirmişdir.

Möhtərəm cənab Prezident, Siz Ümummilli Liderin uzaqgörənliklə müəyyənləşdirdiyi kursa sadiq qalaraq onun jurnalistika ilə bağlı baxışlarındakı ideoloji xəttə davamlılıq qazandırmısınız. Bu xətt jurnalist peşəkarlığının yüksəldilməsindən tutmuş media orqanlarının maddi-texniki bazasının, jurnalistlərimizin sosial-məişət şəraitinin yaxşılaşdırılmasınadək bir çox vacib məqamları özündə birləşdirmişdir. Rəhbərliyinizlə reallaşdırılmaqda olan çoxşaxəli islahatlar proqramı jurnalistikanı da əhatə edir. Gözləntimiz və arzumuz budur ki, Qafqaz coğrafiyasında xüsusi çəkiyə malik media orqanlarımız dünyanın nüfuzlu informasiya resursları ilə rəqabət mühitinə hazır olsunlar.

Cənab Prezident, 44 günlük Vətən müharibəsi dövründə dünyanın qlobal media orqanlarına müsahibələrinizdəki fikirlər düşmənlə apardığımız informasiya savaşının əsas konturlarını təşkil etdi. Bu savaşdan qalib ayrılmaqdan, torpaqlarımızın düşmən tapdağından qurtulmasına şahidlikdən, zəfər təntənəsini yaşamaqdan böyük xoşbəxtlik ola bilməzdi.

Onu da bildiririk ki, dünyada baş verən qlobal proseslər fonunda milli maraq və mənafelərimizin qorunmasındakı prinsipiallıq və qətiyyətiniz Azərbaycan jurnalistlərinin ən mühüm yaradıcılıq mövzusudur. Bu istiqamətdə materiallar hazırlamaq, təhlillər aparmaq bizim üçün xüsusi əhəmiyyət kəsb edir. Bizi güclü edən, qürurlandıran bu fəaliyyətin Vətənimiz naminə olduğuna dərin əminliyimizdir.

Möhtərəm cənab Prezident, Azərbaycan jurnalistlərinin VIII qurultayı milli informasiya resurslarımızın qarşısında ali vəzifələr müəyyənləşdirməkdədir. Biz Sizin şəxsinizdə Azərbaycan dövlətinin media siyasətinin zəngin mahiyyətinə güvənərək dövlətimizin, dövlətçiliyimizin möhkəmlənməsi naminə mühüm vəzifələrin icrasına hazır olduğumuzu bəyan edirik.

Sizə Vətənimizin çiçəklənməsinə yönələn müqəddəs fəaliyyətinizdə yeni-yeni uğurlar və müvəffəqiyyətlər arzulayırıq.

Prezident İlham Əliyevə dərin hörmət və ehtiramla,

***Azərbaycan jurnalistlərinin VIII qurultayının iştirakçıları***

*Bakı, 24 sentyabr 2022-ci il".*

# Azərbaycan jurnalistlərinin VIII qurultayı keçirilib

Sentyabrın 24-də Beynəlxalq Muğam Mərkəzində Azərbaycan jurnalistlərinin VIII qurultayı keçirilib.



AZƏRTAC xəbər verir ki, qurultayda əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, ölkəmizin ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçən şəhidlərin, həmçinin peşə fəaliyyətini yerinə yetirərkən Kəlbəcərin Susuzluq kəndində minanın partlaması nəticəsində həlak olan jurnalistlər - AZƏRTAC-ın aparıcı müxbiri Məhərrəm İbrahimovun və Azərbaycan Televiziyasının operatoru Sirac Abışovun, eyni zamanda əvvəlki qurultaydan ötən dövr ərzində dünyasını dəyişmiş digər jurnalistlərin xatirəsi birdəqiqəlik sükutla yad olunub.

Azərbaycan Mətbuat Şurası sədrinin müavini Umud Rəhimoğlu jurnalistlərin VIII qurultayının iştirakçılarının Prezident İlham Əliyevə müraciətini oxuyub.

Sonra qurultayın gündəliyi səsə qoyularaq qəbul edilib.

Mətbuat Şurasının sədri Əflatun Amaşov Azərbaycan jurnalistlərinin VII qurultayından ötən dövrdə görülən işlərlə bağlı hesabat məruzəsi ilə çıxış edib. Bildirib ki, Azərbaycan jurnalistlərinin VII qurultayından bu günədək Şuraya ümumilikdə 1615 şikayət daxil olub. İlkin mərhələdə baxılan 1615 məsələdən 963-ü katiblikdə həllini tapıb, tərəflər arasında anlaşma əldə olunub. Digər 652 halda şikayətçi və cavabdeh tərəf arasında razılığa gəlinmədiyindən məsələlər və onlarla bağlı toplanmış materiallar baxılmaq üçün Şuranın müvafiq komissiyalarına göndərilib. Şikayətlər üzrə komissiyada baxılan 652 məsələdən 520-si komissiya səviyyəsində həllini tapıb, digər 132 məsələ barədə çıxarılan rəylər qərar qəbulu üçün idarə heyətinə təqdim edilib.

Daha sonra nəzarət-təftiş komissiyasının hesabatı dinlənilib, məruzələr ətrafında müzakirələr aparılıb.

APA Media Qrupunun baş direktoru Vüsalə Mahirqızı, "Paralel" qəzetinin baş redaktoru Tapdıq Abbas, Mətbuat Şurasının İdarə Heyətinin üzvü Azər Həsrət, "Editor.az" informasiya portalının rəhbəri Fərid Şahbazlı, "Yeni Çağ" Media Qrupundan Aqil Fərəcov, "Yeni Müsavat" Media Qrupunun rəhbəri Rauf Arifoğlu, Mətbuat Şurasının İdarə Heyətinin üzvü Yadigar Məmmədli, "AzNews.az" analitik-informasiya portalının baş redaktoru Taleh Şahsuvarlı, "Femida" qəzetinin baş redaktoru Etibar Poladlı, "Minadan Zərərçəkənlərin Assosiasiyası" İctimai Birliyinin sədri Rey Kərimoğlu, "Police.az" saytından Şəmsəddin Əliyev, "Kredo" qəzetinin baş redaktoru Əli Rza Xələfli, "Veteninfo.az" informasiya agentliyinin baş redaktoru Nahid Canbaxışlı, "Zaqatala" qəzetinin redaktoru İbrahim İbrahimov, "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev, "Türkel" qəzetinin baş redaktoru Ramiz Məşədihəsənli, Azərbaycanın Əməkdar jurnalisti Rəhman Orxan, Milli Məclisin deputatı Aqil Abbas, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, "Aran" qəzetinin baş redaktoru Məhsəti Ağayeva, "Kür" qəzetinin baş redaktoru Əminə Yusifqızı, "Ədalət" qəzetinin baş redaktoru İradə Tuncay və başqaları tədbirdə çıxış ediblər. Çıxışlarda Mətbuat Şurasının fəaliyyəti ilə bağlı fikirlər bildirilib, qarşıdakı dövrdə həyata keçiriləcək işlərlə bağlı bir sıra təkliflər irəli sürülüb. Vurğulanıb ki, Şura yarandığı gündən jurnalistlərin peşə fəaliyyətlərində qanunvericiliyin tələblərinə, peşə prinsiplərinə əməl etmələrinə ictimai nəzarəti həyata keçirib, dövlət orqanları və ictimaiyyətlə mətbuat arasında əlaqənin və etimadın möhkəmləndirilməsi, söz, fikir və məlumat azadlığına daha geniş imkanlar yaradılmasına kömək göstərib. Həmçinin media vasitələrinin fəaliyyət sahələrində baş verən münaqişələrin məhkəməyəqədər həlli variantlarının araşdırılmasını, redaksiya əməkdaşlarının davranışı ilə əlaqədar verilmiş şikayətlərin qəbulunu, öyrənilməsini və bununla bağlı qərarların çıxarılmasını həyata keçirib. Ümumilikdə Şuranın gördüyü işlər qənaətbəxş hesab edilib.

Mətbuat Şurası sədrinin müavini Müşviq Ələsgərli Şuranın Nizamnaməsində ediləcək dəyişikliklərlə bağlı məlumat verib.

Qurultayda Azərbaycan Mətbuat Şurasının Nizamnaməsinə əlavə və dəyişiklik edilib. "Azərbaycan Jurnalistlərinin Peşə Davranışı Qaydaları" "Azərbaycan Jurnalistlərinin Etik Davranış Kodeksi" olaraq dəyişdirilib. Eyni zamanda Nizamnaməyə "Gender bərabərliyi və ayrı-seçkiliyə yol verilməməsi prinsipinin müdafiəsi" prinsipi əlavə olunub.

Tədbirdə həmçinin Mətbuat Şurasının nəzarət-təftiş komissiyasının və İdarə Heyəti üzvlərinin müəyyənləşdirilməsi ilə bağlı seçki keçirilib. Səsvermənin nəticələrinə əsasən, Mətbuat Şurasının 5 nəfərdən ibarət nəzarət-təftiş komissiyası, 14 jurnalistdən və 9 ictimaiyyət nümayəndəsindən ibarət olmaqla, 23 nəfərlik İdarə Heyəti formalaşıb.

Azərbaycan jurnalistlərinin VIII qurultayı çərçivəsində baş tutan səsvermədə "525-ci qəzet"in baş redaktoru, şair, publisist Rəşad Məcid Mətbuat Şurasının sədri seçilib.

Sonda qurultayın qətnaməsi səsə qoyularaq qəbul olunub.

Bununla da jurnalistlərin VIII qurultayı başa çatıb.

Qeyd edək ki, qurultayda Mətbuat Şurasına üzv 163 təşkilatdan 213 nümayəndə iştirak edib.



# Azərbaycan qazına tələbatın artması məsələsi gündəmdən düşmür

## Rumıniya da ölkəmizdən mavi yanacaq idxal etmək niyyətindədir

**Azərbaycanın Avropaya nəql etdiyi qaza tələbatın artması son dövrlər gündəmdən düşməyən vacib məsələyə çevrilib. Söhbət 2027-ciilədək ixracın 10 milyard kubmetrdən 20 milyard kubmetrə çatdırılmasından gedir. Bu məsələ cari ilin iyul ayında imzalanan Avropa İttifaqı (Aİ) ilə Azərbaycan arasında enerji sahəsində strateji tərəfdaşlığa dair Anlaşma Memorandumunda öz əksini tapdığı kimi, keçirilən bir sıra tədbirlərdə də əsas mövzu olub.**

Bu baxımdan sentyabr ayında "Gələcəyə körpü" devizi altında keçirilən 5-ci Rumıniya Beynəlxalq Qaz Konfransı istisna təşkil etmir. Məlum olduğu kimi, bu tədbirə Azərbaycanın energetika naziri Pərviz Şahbazov da qatılıb və Rumıniyanın Baş naziri Nikolay Siukanın iştirakı ilə keçirilən nazirlər iclasında, həmçinin "Vizyondan reallığa" adlı nazirlər panelində çıxış edib. Çıxışlarda enerji böhranının aradan qaldırılması üçün enerji bazarlarını balanslaşdıracaq şaxələndirilmiş tədarük mənbələrinin təchizi istiqamətində Azərbaycanın töhfələrindən bəhs olunub. Bildirilib ki, iki ildən az bir vaxtda Avropa 16 milyard kubmetrdən çox qazla təchiz edilib. Avropaya qaz təchizatı 2022-ci ilin sonuna 40 faiz artımla 8,2 milyard kubmetrdən 11,5 milyard kubmetrə yüksələcək. Bu isə "Cənub qaz dəhlizi"nin maksimum güclə işləməsinin, təchizatda fasiləsizlik və sabitliyin təsdiqidir. "Cənub qaz dəhlizi"nin enerji təhlükəsizliyindəki bugünkü rolu Prezident İlham Əliyevin vizyonunun real ifadəsidir.

Enerji təhlükəsizliyinin təminatında növbəti addım olaraq beş il ərzində "Cənub qaz dəhlizi"nin genişləndirilməsi qeyd edilib. Vurğulanıb ki, təbii qaz ixracının iki dəfə artırılaraq 20 milyard kubmetrə çatdırılması üçün boru kəmərlərinin ötürücülük gücünün və hasilatın artırılmasına investisiyalar yatırılmalı, müqavilələr imzalanmalı və texniki tədbirlər görülməlidir. Bu layihənin sürətlə gerçəkləşdirilməsi istehsalçı və istehlakçıların ümumi marağındadır. Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu komanda şəklində fəaliyyət üçün həlledici addımdır və bu, zəruri siyasi təminatı verir. Məhz birgə siyasi iradə sayəsində göstərilən həcmdə Azərbaycan təbii qazı Avropaya 2027-ci ildə daxil ola biləcək.

Yeri gəlmişkən, bildirək ki, sözügedən konfransda uzunmüddətli perspektivdə Azərbaycanın bərpaolunan enerjini, hidrogeni təchiz edən mənbə olacağı planları da diqqətə çatdırılıb. Bu xüsusda Xəzər dənizinin külək enerjisinin Avropaya ötürülməsində və "yaşıl enerji" dəhlizinin reallaşmasında Gürcüstan-Rumıniya Qara dəniz sualtı enerji və rəqəmsal qoşulma layihəsinin əhəmiyyəti vurğulanıb. Ölkəmizin həmçinin "yaşıl enerji" üzrə etibarlı tərəfdaşa çevriləcəyi və bu yeni əməkdaşlıq prioritetlərinin Rumıniya ilə enerji tərəfdaşlığını yeni mərhələyə yüksəldəcəyi bildirilib.

Rumıniya uzun illərdir Azərbaycanla xam neft, neft və neft-kimya məhsulları üzrə əməkdaşlıq edir və bundan məmnundur. SOCAR-ın Rumıniyanın 26 regionunda 68 yanacaqdoldurma məntəqəsinin fəaliyyəti faydalı ikitərəfli enerji əlaqələrinin göstəricisi kimi dəyərləndirilir.

İndi həm də "Cənub qaz dəhlizi"nin genişləndirilməsi çərçivəsində təbii qazın tədarükü və "yaşıl enerji"nin Qara dəniz sualtı elektrik xətti ilə ötürülməsi üzrə əməkdaşlıq da prioritetlər sırasındadır. Bununla bağlı inkişaf planlarının Azərbaycan-Rumıniya enerji tərəfdaşlığına strateji əhəmiyyət qazandıracağı Buxarest konfransında da qeyd edilib.

"Biz qaz müharibəsinin ortasındayıq. Bu müharibə keçən il başlayıb və biz problemi nəzarət altında saxlamalıyıq". Bu sözləri Rumıniyanın energetika naziri Virgil Daniel Popesku deyib. O bildirib ki, ölkə əhalisinin əksəriyyəti iqtisadi baxımdan çıxılmaz vəziyyətdədir. Qazın qiymətinin onların ödəmə qabiliyyətindən çox yüksək həddə olması qış ayları ilə bağlı narahatlıq yaradır. Hazırda Rumıniya ölkənin qaz istehlakının cəmi 90 faizini təmin edir, qalan hissəsini isə Azərbaycandan idxal etmək niyyətindədir, lakin hələ ki bununla bağlı müqavilə imzalanmayıb.

Rumıniya Beynəlxalq Qaz Konfransı çərçivəsində həmçinin Yunanıstanın ətraf mühit və energetika naziri Kostas Skrekasla görüşdə "Cənub qaz dəhlizi"nin genişləndirilməsinə, Azərbaycandan təbii qazın tədarükünə dair məsələlər müzakirə edilib. Azərbaycandan Avropaya qaz ixracının iki dəfə artırılması istiqamətində Aİ ilə imzalanmış strateji tərəfdaşlıq sənədi və enerji dialoqunun əhəmiyyətindən danışılıb. Dəhlizin genişləndirilməsi prosesinin sürətləndirilməsinin və lazımi dəstəklə təmin olunmasının vacibliyi vurğulanıb. Xatırladaq ki, bu il ölkəmizdə Yunanıstana 1,1 milyard kubmetr qaz ixracı proqnozlaşdırılır.

Bolqarıstanın energetika naziri Rosen Xristovla görüşdə də ikitərəfli enerji əməkdaşlığının inkişafına dair məsələlər müzakirə edilib. Azərbaycandan Bolqarıstana qaz ixracının artması yüksək qiymətləndirilib. Belə ki, ilin sonuna Bolqarıstana 600 milyon kubmetr qaz ixracı planlaşdırılır. Bu da qaz istehlakının 19 faizinin Azərbaycan hesabına ödənilməsi deməkdir. Gələn ay Yunanıstan-Bolqarıstan İnterkonnektorunun (İGB) kommersiya fəaliyyətinə başlayacaq. Bu faktın özü də Bolqarıstanla enerji əməkdaşlığının gələcək perspektivlərindən xəbər verir.

Türkiyənin energetika və təbii sərvətlər nazirinin müavini Alparslan Bayraktar ilə də "Cənub qaz dəhlizi"nin inkişafı və enerji təhlükəsizliyinə Azərbaycanla Türkiyənin birgə töhfələri ilə bağlı fikir mübadiləsi aparılıb.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Ərzaq təhlükəsizliyi dövlətin diqqətində olan əsas məsələdir

## Quşçuluğun inkişafında elmi əsaslara üstünlük veriləcək



Azərbaycanda aparılan aqrar islahatların əsas hədəfi ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsidir. Bu istiqamətdə görülən işlər öz müsbət nəticəsini verir. Ötən əsrin 90-cı illərində ölkənin ticarət şəbəkələrində satılan kənd təsərrüfatı məhsullarının mütləq əksəriyyətini idxal olunan mallar təşkil edirdisə, indi satışda olan məhsulların çoxu yerli istehsaldır.

Son dövrlər aqrar sektordan əldə edilən məhsulların çəkisi sürətlə artır. Bu gün demək olar ki, yerli istehsal daxili tələbatı ödəməklə ixraca da imkan yaradır. Qeyri neft-qaz sektoruna məxsus malların ixracda çəkisinin yüksək olması da bununla bağlıdır.

Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, cari ilin yanvar-avqust aylarında kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 7428,8 milyon manat təşkil etmişdir ki, onun da 3341,1 milyon manatı heyvandarlıq, 4087,7 milyon manatı isə bitkiçilik məhsullarının payına düşür. Ötən ilin eyni dövrü ilə müqayisədə kənd təsərrüfatı istehsalı 3,2, o cümlədən heyvandarlıq məhsulları üzrə 2,7, bitkiçilik məhsulları üzrə isə 3,6 faiz artmışdır.

Cari ilin 8 ayının statistikası göstərir ki, bu dövrdə ölkədə quş əti də daxil olmaqla diri çəkidə ət istehsalı 2,9 faiz artaraq 364,2 min ton, yumurta istehsalı 4,2 faiz artaraq 1323,3 milyon ədəd olub. İndi ölkədə istehsal olunan quş əti və yumurta əhalinin tələbatının 80 faizdən çoxunu ödəyir. Məqsəd qarşıdakı illərdə daxili tələbatı tam ödəməklə ixraca da nail olmaqdır.

Hazırda ölkədə quşçuluğun inkişafına da xüsusi diqqət yetirilir. Bu günlər Kənd Təsərrüfatı Nazirliyinin Heyvandarlıq Elmi-Tədqiqat İnstitutu ilə "Azərbaycan Quş əti, Yumurta İstehsalçılar və İxracatçıları Assosiasiyası" İctimai Birliyi arasında əməkdaşlıq haqqında memorandum imzalanıb. Belə ki, məqsəd təşkilati-hüquqi formasından asılı olmayaraq, ölkə ərazisində qeydiyyata alınmış müəssisə və təşkilatlar arasında əməkdaşlığın qurulması, həmçinin əməkdaşlıq nəticəsində quşçuluq fəaliyyətinin daha da inkişaf etdirilməsinə elmi əsaslarla dəstək göstərməkdir.

Eləcə də məqsəd quş əti, yumurta istehsalı və ixracı ilə məşğul olan fərdi sahibkarlar, həmçinin hüquqi şəxslərin maraqlarının qorunması istiqamətində təsərrüfat subyektlərinin uzunmüddətli və hərtərəfli iqtisadi əlaqələrinin inkişafına yardım etməkdir. Eyni zamanda təsərrüfat subyektləri arasında qarşılıqlı maraq doğuran məsələlər üzrə təcrübə mübadiləsi seminar, konfrans, sərgi, yarmarka və işgüzar görüşlərin təşkil olunmasına yardım göstərməkdir. Bundan başqa, ixtisaslaşmış kadrların hazırlanması məqsədilə mütəxəssislərlə birgə təlimlərin keçirilməsi, müasir metodların tətbiqi ilə quşçuluq sahəsində təlim və təcrübə mübadiləsinin aparılması, həyata keçiriləcək layihələrin koordinasiyası üzrə birgə fəaliyyətin göstərilməsi, məsləhət-informasiya xidmətinin təşkili nəzərdə tutulur.

Tərəflər həmçinin subyektlərdə riskləri qiymətləndirməklə qabaqlayıcı tədbirlərin görülməsi üçün bütün yaş qrupları üzrə quş yemlərinin keyfiyyət göstəricilərinin təyin edilməsi və analizlərinin aparılması, yeni tərkibdə istehsal olunan quş yemlərinin sınağının keçirilməsi, respublikaya damazlıq məqsədilə gətirilən yeni xətt və krosların sınağı istiqamətində əməkdaşlıq edəcəklər. Bununla bərabər, yerli şəraitdə adaptiv xüsusiyyətlərin öyrənilməsi, mövcud genofondun qorunması və ikimərhələli seleksiya-damazlıq proqramlarının hazırlanması, yüksək məhsuldar quşların yeni xətt və kroslarının yaradılması, cins quşların damazlıq pasportu (şəhadətnaməsi) və damazlıq ehtiyatlarının sertifikatlaşdırılması, yerli quş cins, xətt və kroslarının patentləşdirilməsi və qorunması, damazlıq yumurtanın inkubasiya keyfiyyətinin təyin edilməsi, fermerlərə konsaltinq xidmətlərinin göstərilməsi təmin ediləcək. Tərəflər eləcə də Ümumdünya Quşçuluq Elmi Assosiasiyası ilə əməkdaşlığın qurulmasına dəstək, beynəlxalq konqreslərdə, konfranslarda və sərgilərdə işçi qrupların iştirakının təmin olunması, dünya quşçuluq təsərrüfatları ilə əlaqələrin yaradılması istiqamətlərində monitorinqlərin keçirilməsi ilə bağlı razılığa gəliblər.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Qazilərimiz və onların ailə üzvləri diqqət mərkəzindədirlər



Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov Ermənistan silahlı qüvvələri tərəfindən sentyabr ayının 12-dən 13-nə keçən gecə Azərbaycan-Ermənistan dövlət sərhədinin Daşkəsən, Kəlbəcər, Laçın və Zəngilan istiqamətlərində törədilən genişmiqyaslı təxribatların qarşısını alarkən yaralanmış və hazırda respublikanın müxtəlif şəhər və rayonlarında müalicə alan hərbi qulluqçuların ailə üzvlərini ziyarət edib.

RİH başçısı yaralı hərbçilərimizin səhhəti və qayğıları ilə maraqlanıb, ailə vəziyyəti ilə tanış olub.

Yaralı hərbi qulluqçuların ailə üzvləri onlara göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını ifadə ediblər.





*Lazım QULİYEV,*
*"Azərbaycan"*

# Qələbə sevincini yaşadanlar

## Onlar daim xalqımızın qəlbində olacaqlar

Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatlarının qarşısını alarkən Qazaxın igid oğulları da qəhrəmanlıq göstərib, adlarını hərb tariximizə qızıl hərflərlə yazmışdılar.

Qazax rayonundan olan 12 nəfər hərbi qulluqçu döyüşlərdə yaralanmış və müxtəlif dərəcəli bədən xəsarətləri almışdır. Vətəni canından çox sevən, onun yolunda şəhid olan və sağlamlığını itirən oğullara rayonda böyük ehtiram göstərilməklə yanaşı, onların sosial problemlərinin həlli istiqamətində də müvafiq tədbirlər görülür. Dövlət başçısının siyasətinə uyğun olaraq rayon rəhbərliyi tez-tez şəhid və qazi ailələrində olur, onların problemləri ilə maraqlanır.

Vətən müharibəsində olduğu kimi, sentyabrın 12-də erməni təxribatının qarşısını alarkən, şəhid olmuş Vətən övladlarının ailələri də xüsusi diqqət mərkəzində saxlanılır. Elə bu günlərdə torpağa tapşırılmış üç igid Vətən oğlunun-baş leytenant Yunis Kazımovun, baş gizir Azər Məmmədovun və gizir Azad Kərimovun ailələrinə baş çəkən Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov şəhidlərimizə Allahdan rəhmət, ailə üzvlərinə isə səbir diləmişdir. Qeyd edilmişdir ki, düşmənə hər an tutarlı zərbə vurmağa hazır olan qüdrətli





Azərbaycan Ordusu şəhidlərimizin qısasını almış, igid Vətən oğullarının qanları yerdə qalmamışdır. 44 günlük Vətən müharibəsində qəhrəmancasına döyüşən hər üç şəhidin bu döyüşdə də şücaətlə vuruşduğu, adlarını xalqımızın qəlbinə qızıl hərflərlə həkk etdikləri daim ehtiramla anılacaq.

Rayon rəhbərliyi erməni təxribatının qarşısını alarkən yaralanan əsgərlərimizi də ziyarət etmişdir. Yaralı əsgərlərimizin sağlamlıq durumunu öyrənmək üçün Gəncə şəhərində yerləşən Hərbi Hospitalda olmuşdur. Burada müalicə alan hərbi qulluqçular - əsgər Allahmanov Ülvi Süleyman oğlunu, əsgər Hüseynov Pənah Surxay oğlunu, əsgər Niyazəliyev Niyaz Əsgər oğlunu, əsgər Rəhimov Osman Yaşar oğlunu ziyarət edən icra başçısı onların səhhəti ilə maraqlanmışdır. Yaralılarımızla səmimi söhbət edib, onların tək olmadıqlarını, dövlətin qayğısı ilə əhatələndiklərini bildirmiş, yaralılarımıza Allahdan şəfa diləmiş, tezliklə sağlamlıqlarına qovuşmalarını arzu etmişdir.

Milli Məclisin deputatı Ülviyyə Ağayeva Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov, icra aparatının məsul işçiləri ilə birlikdə Xanlıqlar və Qarapapaq kəndlərinə də getmiş, yaralılarımızın ailələrinə baş çəkmişlər. Xanlıqlar kənd sakinləri - gizir Bəkirov Rafiq Səlim oğlunun, kiçik çavuş Məmmədov Əlhəm Qələndər oğlunun, Qarapapaq kənd sakini, əsgər Hüseynov Pənah Surxay oğlunun ailələri ilə görüşdə onların qayğıları ilə maraqlanmışlar. Müzəffər Ali Baş Komandan İlham Əliyev başda olmaqla hərbçilərimizlə, Vətən uğrunda canından keçən şəhidlərimizlə, sağlamlıqlarını itirən qazilərimizlə fəxr etdiklərini bildirmişlər. Rafiq, Əlhəm, Pənah kimi oğullarımızla hər bir azərbaycanlının qürur duyduğunu dilə gətirmişlər. İllər ötsə belə bizlərə 44 günlük haqq savaşında qürur dolu anlar bəxş edən oğullarımızın, eləcə də sentyabrın 12-dən etibarən düşmən təxribatının qarşısını alarkən şəhid olan, yaralanan qəhrəmanlarımızın heç vaxt unudulmayacağını qeyd etmişlər. Dövlət başçısı İlham Əliyevin, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın şəhidlərimizə, qazilərimizə, onların ailə üzvlərinə olan münasibətlərinin, göstərdikləri qayğının hər bir dövlət məmuruna, eləcə də hər bir vətəndaşa örnək olduğunu diqqətə çatdırmışlar.

Yaralı Rafiqin atası Səlim Bəkirov təkcə övladı ilə deyil, onunla çiyin-çiyinə vuruşan bütün hərbçilərimizlə fəxr etdiyini dilə gətirib. Bir ata kimi şəhidlərimizin ruhu qarşısında baş əydiyini vurğulayıb. Övladına, eləcə də digər hərbçilərimizə, yaralılarımıza göstərilən qayğıya görə dövlət başçısına, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlığını bildirib. Bu ziyarəti hərbçilərə, yaralılara olan dövlət qayğısının bariz nümunəsi kimi dəyərləndirib.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

# Yaralı hərbçilər ziyarət olundu

Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov sentyabrın 19-da Gəncə Hospitalında müalicə olunan mingəçevirli hərbçilərlə görüşmüşdür.



Qeyd edək ki, hərbçilərimiz sentyabrın 12-dən 13-nə keçən gecə Ermənistan silahlı qüvvələrinin Azərbaycan-Ermənistan dövlət sərhədinin Daşkəsən, Kəlbəcər, Laçın və Zəngilan istiqamətlərində genişmiqyaslı təxribatlarına cavab verərkən yaralanmışlar. Hospitalın rəhbərliyi və həkimlərlə səmimi söhbətdən sonra İlham İsmayılov hərbçilərimizin müalicə olunduqları palatalara baş çəkdi.

İlk görüş baş leytenant Rüstəmov Əsgər Elman oğlu ilə oldu. 26 yaşlı hərbçimiz əslən Şəki rayonunun kiçik Dəhnə kəndindəndir. Valideynləri Mingəçevirdə yaşadıqlarından burada böyümüş və təhsil almışdır. Şəhərdəki 1 nömrəli tam orta məktəbi başa vurduqdan sonra hərbi liseyə daxil olub və sonra hərbi akademiyanı bitirib. Ali təhsilli mütəxəssis kimi orduda xidmət edir. Şəhər rəhbəri onun müalicəsi ilə maraqlandı, xoş arzularını bildirdi: "Erməni təxribatçılarına mərdliklə cavab verməyiniz bizi hədsiz sevindirir. Siz qalib ordumuzun layiqli hərbçilərisiniz. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Milli Ordumuzun zəfər yürüşləri düşməni yerində oturdub, nəyə qadir olduğumuzu dünyaya nümayiş etdirib. Əsgər və zabitlərimizin şücaəti ürəkaçandır. Biz sizinlə fəxr edir, qürur duyuruq".

Sonra gənc zabitin arzu və istəkləri dinlənildi. Əsgər Rüstəmov onlara göstərilən diqqət və qayğıya görə ölkə rəhbərinə dərin minnətdarlığını ifadə etdi. Hospitalda onlara hər cür qayğı göstərildiyini dilə gətirdi. Orta təhsil aldığı 1 nömrəli məktəbin kollektivinə, xüsusən ona bilik öyrədən müəllimlərə salamlarını çatdırmağı xahiş etdi: "Onlar mənim həyat yoluma işıq salıblar. Mingəçevirdə mənim yaxşı dostlarım var, inşallah, onlarla görüşəcəyəm. Sağaldıqdan sonra yenidən hərbi xidmətimi davam etdirəcəyəm. Bu, mənim Vətən qarşısında borcumdur".

Şəhər icra hakimiyyətinin başçısı xoş sözlərə görə gənc zabitə təşəkkür etdi və toy mərasiminin təşkilində ona yaxından dəstək olmağa hazır olduğunu bildirdi.

Növbəti görüş əsgər Hacıyev Ruzi Dəyanət oğlu ilə oldu. Mingəçevir şəhərindəki N.Nərimanov küçəsi, bina 19/1-in 5 nömrəli mənzilində yaşayan, hərbi xidmətə çağırılan əsgər komandirlərinin tapşırıqlarını layiqincə yerinə yetirdiyini dedi. Şəhər icra hakimiyyətinin başçısı Ruzi Hacıyevə tezliklə sağalmağı, hərbi xidmətini davam etdirməyi, xidməti müddətini başa vurduqdan sonra ailə həyatı qurmağı arzu etdi.

Mingəçevir kənd yaşayış massivindəki Şəfəq küçəsi 39B nömrəli evin sakini, müddətli həqiqi hərbi xidmətdə olan Məmmədov Razil Raqil oğlu ilə görüşən şəhər icra hakimiyyətinin başçısı İlham İsmayılov ona xoş arzularını ifadə etdikdən sonra ailə vəziyyəti ilə maraqlandı. Nə kimi dəstəyə ehtiyac duyduğunu soruşdu. Razil Məmmədov göstərilən diqqət və qayğıya görə minnətdarlığını ifadə etdi.

Hər bir hərbçimizlə keçirilən görüşdə onlara ərzaq bağlaması təqdim edildi. Görüşlərdə mingəçevirli fəallar da iştirak edirdilər.

*L.QULİYEV,*
*"Azərbaycan"*



# Təxribatlar postmüharibə dövrünün yeni reallıqlarını dəyişə bilməz

Cari ilin avqust ayında Avropa İttifaqının vasitəçiliyi ilə Brüsseldə keçirilən Ermənistanla Azərbaycan arasında sülh danışıqlarının aparılması haqqında razılıq hər iki xalqın gələcək mənafeyi baxımından müsbət hadisə idi.

Bundan əvvəl isə Ermənistan Azərbaycanın irəli sürdüyü beş maddədən ibarət sülhə xidmət tələblərini də qəbul etməyə hazır olduğunu bildirmişdi. Təəssüf ki, sülh danışıqları haqqında əldə olunan razılığın üstündən çox keçməmiş, daha dəqiq desək, sentyabrın 12-si gecə saatlarından başlayaraq Ermənistan silahlı qüvvələrinin diversiya qruplarının Azərbaycan-Ermənistan dövlət sərhədinin Daşkəsən, Kəlbəcər, Laçın və Zəngilan istiqamətlərində genişmiqyaslı təxribatı nəticəsində Kəlbəcər rayonu ərazisində heyvandarlıqla məşğul olan Goranboy rayonunun Veysəlli kəndində yaşayan Kəlbəcər rayonu Bozlu kənd sakini, 1975-ci il təvəllüdlü Asim Musayev və Goranboy rayonunun Qaraçinar kəndində yaşayan Kəlbəcər rayonu Ağdaban kənd sakini, 1984-cü il təvəllüdlü Arzuman Orucov müxtəlif dərəcəli ağır bədən xəsarətləri aldılar. Hazırda Asim Musayev Gəncə şəhəri Abbas Səhhət adına 1 nömrəli Xəstəxanada müalicə alır, onun vəziyyəti orta-ağır qiymətləndirilir. Arzuman Orucova isə ilkin tibbi yardım göstərildikdən sonra evə buraxılıb. Ermənistan silahlıları Azərbaycan-Ermənistan dövlət sərhədinin Gədəbəy, Daşkəsən, Tovuz, Naxçıvan Muxtar Respublikası istiqamətlərində də bu kimi təxribatlar törətməyə cəhd göstəriblər. Lakin bütün hallarda silahlı qüvvələrimizin bölmələri düşmənin təxribatına layiqli cavab verərək onların hücumunun qarşısını peşəkarlıqla almışlar.

Görünən odur ki, Ermənistan üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməyə cəhd göstərmir, müxtəlif manevrlərlə bundan yayınmağa çalışır. Beynəlxalq hüquq normaları çərçivəsində razılaşmalara, imza atdığı üçtərəfli Bəyanata məhəl qoymadan Azərbaycana qarşı hərbi təcavüzünü davam etdirir, mülki əhalini hədəfə alır, dinc insanlara qarşı terror əməlləri törədir. Lakin Ermənistan və onun havadarları bilməlidirlər ki, güclü Azərbaycan Ordusu istənilən təxribatın qarşısını almağa, döyüş tapşırığını yerinə yetirməyə qadirdir, şəxsi heyətin döyüş ruhu çox yüksəkdir. Ordumuzun arsenalında ən müasir silah-sursatlar və zirehli texnikalar var. Azərbaycan Ordusu dünyanın çox az hərbi qüvvələrində olan - gecə şəraitində yüksək dağlıq ərazilərdə hərbi əməliyyatlar keçirmək üçün istifadə edilən cihazlara sahibdir. Ermənistan silahlılarının terror hücumlarının qarşısının alınmasında ordumuz bu cihazlardan peşəkarlıqla istifadə edir. Gecə şəraitində 3000 metr dağlıq ərazidə aviasiya cəlb olunmadan hərbi əməliyyatın aparılması kimi imkanlar əksər ölkələrdə yoxdur. Bu və digər bu kimi cihazlar vasitəsi ilə Ermənistan diversiya qruplarının gücləndirilmiş bunkerləri və postları qısa müddətdə neytrallaşdırılır. Bu səbəbdəndir əsgər və zabitlərimizin istər gecələr, istər gündüzlər həyata keçirdikləri əməliyyatlardan sonra ermənilərin itkisi bizimkindən qat-qat çox olur.

Bütün bunlar Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin ordu quruculuğuna göstərdiyi diqqət və qayğının bariz nümunəsidir. Yaxın tariximizə nəzər salanda görürük ki, düşmən üzərində qazanılan qələbənin təməli 2016-cı ilin dördgünlük Aprel döyüşləri və 2018-ci il Günnüt qələbəsi ilə qoyulub. Nəhayət, 2020-ci ilin payızındakı 44 günlük Vətən müharibəsində əldə olunan şanlı qələbə son ikiyüzillik erməni işğalına da son qoydu.

Onu da qeyd edək ki, Ermənistan və onun havadarları, erməni lobbisi, ermənipərəst qüvvələr nə etdilərsə də, uzun illər boyu bir şeyə gücləri çatmadı. Xalqımızın ruhunu, inamını, ümidini, birliyini, torpaq sevgisini söndürə bilmədilər. Düşmən və havadarları Azərbaycan Silahlı Qüvvələrinin qəhrəmanlığını və yüksək döyüş qabiliyyətini görəndən sonra anladılar ki, azərbaycanlılar öz torpaqları uğrunda canlarından keçməyə hazırdırlar, intiqam almağı bacarırlar, "mən ölsəm də, təki Vətən yaşasın", - deyib döyüşə atılırlar.

Son iki ildə Ermənistan Azərbaycana qarşı dəfələrlə təxribat törədib və hər dəfə də ağır itki verib, yüzlərlə hərbi texnikası sıradan çıxarılıb. Sentyabrın 12-si gecədən başlayaraq Ermənistan silahlı qüvvələrinin Azərbaycanla dövlət sərhədinin Daşkəsən, Kəlbəcər, Laçın və Zəngilan istiqamətlərində genişmiqyaslı təxribat törətməsi düşmənin növbəti dəfə həm canlı qüvvə, həm də müxtəlif texnika itkiləri ilə nəticələndi. Azərbaycan Ordusunun həyata keçirdiyi cavab tədbirləri zamanı erməni təxribatının qarşısı qətiyyətlə alındı. Ordumuzun bölmələri bir sıra strateji əhəmiyyətli yüksəklikləri nəzarətə götürdülər.

Hərbi ekspertlərin fikrincə, Azərbaycan Ordusunun apardığı sonuncu döyüş unikal hərbi əməliyyatdır. Azərbaycan Silahlı Qüvvələrinin dəniz səviyyəsindən 3 min metrə qədər yüksəklikdə bir neçə istiqamətdə düşmənə qarşı uğurlu əməliyyatlar aparması xüsusi diqqət çəkib. Düşmən tərəflə müqayisədə dəfələrlə az itki ilə bu cür hərbi əməliyyatın yüksək səviyyədə keçirilməsi düzgün taktikadan, döyüşçülərimizin peşəkarlığından xəbər verir.

Ermənilərin törətdikləri təxribatlar postmüharibə dövrünün yeni reallıqlarını dəyişə bilməz. Xalqımızın çox dəqiq və qəti mövqeyi sayəsində düşmən torpaqlarımıza yaxın buraxılmayacaq. Bu qəti və barışmaz mövqeyi müharibəni alovlandıran "başbilənlər", ermənilər üçün gözyaşları tökənlər, onlara silah-sursat verənlər də dərk etsələr, onda ermənilərin Azərbaycanda sakit, rahat, təhlükəsiz yaşamalarına münbit şərait yaranar...

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

# Ermənistan tərəfindən açılan atəş nəticəsində hərbi qulluqçularımız yaralanıb

Sentyabrın 23-ü saat 19:30-dan saat 23:40-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Yuxarı Şorca və Cermuk yaşayış məntəqələri istiqamətindəki mövqelərindən Azərbaycan Ordusunun Kəlbəcər rayonunun İstisu və Zəylik yaşayış məntəqələri istiqamətində yerləşən mövqelərini müxtəlif çaplı atıcı silahlardan fasilələrlə atəşə tutublar.



Müdafiə Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, atəş nəticəsində Azərbaycan Ordusunun hərbi qulluqçuları Əmənullayev Rəşad Ağacan oğlu, Rəhimzadə Ruhid Oktay oğlu və Cavadov Rəvan Şəmsəddin oğlu yaralanıblar.

Yaralı hərbi qulluqçularımıza dərhal ilkin tibbi yardım göstərilib. Onların həyatı üçün heç bir təhlükə yoxdur. Azərbaycan Ordusunun qeyd olunan istiqamətlərdə dislokasiya olunan bölmələri tərəfindən adekvat cavab tədbirləri görülüb.

Bildiririk ki, baş vermiş insidentə görə bütün məsuliyyət vəziyyəti məqsədyönlü şəkildə gərginləşdirməyə çalışan Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

## Ermənistan Müdafiə Nazirliyinin yaydığı məlumat növbəti təxribat xarakterli dezinformasiyadır

Ermənistan Müdafiə Nazirliyinin Azərbaycan Ordusunun bölmələri tərəfindən, guya, təxribat törədilməsi barədə yaydığı məlumat tamamilə yalandır və heç bir real əsası yoxdur.

Bu barədə Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a məlumat verilib.

"Yayılan məlumatı qəti surətdə təkzib edirik. Bildiririk ki, bu, qarşı tərəfin növbəti təxribat xarakterli dezinformasiyasıdır", - deyə məlumatda qeyd edilib.

# REGİONLAR



# Bu il Ağstafa fermerləri sahələrdə bol günəbaxan yetişdiriblər



**Son illər Ağstafa fermerlərinin iqtisadi cəhətdən gəlirli olan günəbaxan bitkisinə maraqları xeyli artıb. Məhz bunun nəticəsidir ki, onlar bu il əkin sahələrini xeyli genişləndirərək 1166 hektara çatdırmışlar ki, bu da ötən ildəkindən 136 hektar çoxdur. Hazırda rayonda günəbaxan yığımı sürətlə davam etdirilir. Məhsulun yığımı kombaynlar vasitəsilə həyata keçirilir.**

Günəbaxan becərməyin sərfəli olduğunu deyən təsərrüfat sahibləri bildirirlər ki, onun dənindən tum və yağ emalında, qarışıq yem hazırlanmasında, kütləsindən isə mal-qara üçün yem kimi istifadə edilir. Günəbaxanın təmizlənməsi, çeşidlənməsi də texnikalar vasitəsilə həyata keçirilir.



Təsərrüfat sahibi Mahir Muradov da builki məhsuldarlıqdan olduqca razıdır. O deyir ki, bu il məhsulumuz boldur. Hazırda yığılmış günəbaxanı sahədən xırmana tədarük edirik. Onu xırmanda yaxşı quruduruq ki, tumunda acılıq və başqa dadlar olmasın. Ona görə də günəş şüaları altında uzun müddət qurutduqdan sonra kisələrə yığıb anbarlara daşıyırıq.

3 ildir ki, günəbaxan bitkisi yetişdirən fermer Nurəddin Məmmədov bu il əkin sahələrini bir qədər də genişləndirərək 15 hektara çatdırıb. Son illər günəbaxana marağın artdığını deyən təsərrüfat sahibi gələn il əkin sahəsini bir qədər də genişləndirməyi qarşısına məqsəd qoyub. Fermer deyir ki, əvvəlki illərdən fərqli olaraq indi günəbaxanın əkilib-becərilməsində heç bir çətinlik yoxdur. Biçini ən müasir texnika ilə apardığımızdan heç bir itkiyə yol verilmir.

Sahələrdən toplanan məhsul 3-4 gün ərzində quruma prosesindən keçir. Təxminən 4 dəfə suvarılmalı olan günəbaxanın bir hektarına fermer təxminən 700-800 manat vəsait xərcləyir. Yaxşı qulluq edilləndə bitkinin tumu istənilən böyüklükdə olur və baha qiymətə satılır. Onu da deyək ki, ötən il günəbaxan tumunun 1 kiloqramı 1 manata satılırdısa, bu il onun qiymətinin bir qədər artacağı gözlənilir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Səyyar görüşdə mingəçevirlilər problemlərindən söz açdılar

Sakinlər əmin edildilər ki, qaldırılan məsələlər həllini tapacaq

Mingəçevir şəhər sakinləri ilə növbəti səyyar görüş Energetiklər yaşayış massivindəki Naxçıvan küçəsi ərazisində oldu. Görüşə həm də şəhərin müxtəlif küçə və məhəllələrindən sakinlər də gəlmişdilər.



Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov görüşə gələn sakinləri salamladıqdan sonra sentyabr ayının 12-dən 13-nə keçən gecə Kəlbəcər, Laçın, Daşkəsən istiqamətində düşmənin törətdiyi növbəti təxribatdan danışaraq Vətən torpaqlarının azad olunması, qorunması uğrunda həlak olan bütün şəhidlərimizin xatirəsini yad etdi. 44 günlük Vətən müharibəsindəki zəfər tariximizdən sonra Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə və şəhərdə aparılan abadlıq və quruculuq işlərindən bəhs etdi. Bildirdi ki, bu cür səyyar görüşlər dövlət başçısının tapşırığına uyğun olaraq keçirilir, əsas məqsəd sakinləri narahat edən problemləri öyrənmək və onların operativ həllinə nail olmaqdır. İcra başçısı şəhərdə kanalizasiya sisteminin yenidən qurulması işlərinin sürətlə görüldüyünü bildirdi.

Naxçıvan küçəsindəki 46, 48, 48/1, 53/3, 50/2, C.Əliyev küçəsindəki 1, 2, 13, 13A saylı yaşayış binalarının sakinləri çıxış edərək qarşılaşdıqları problemlərdən söz açdılar. Saniyə Əbdürrəhmanova istilik sisteminin olmaması səbəbindən qış aylarında xəstəliklərdən əziyyət çəkdiyini bildirdi. Polad Səfərov zirzəmilərdə yığılan su yığıntısının antisanitariya yaratdığından, Ramiz Məmmədov məhəllədə işıqlanmanın olmamasından, Məlahət Nəsibova əqli və fiziki qüsurlu övladının təqaüdünün kəsilməsindən, Qurban Səmədov yaşadığı küçəyə ad lövhəsinin vurulmamasından, Tofiq Rəsulov və Mahud İsmaylov kanalizasiya və işıqlanma sahəsindəki problemlərdən bəhs etdilər. Anar Səbzəliyev, Aygün Nəbiyeva binalarının ümumi istifadə sahələrinin, dam örtüyünün əsaslı təmirə ehtiyacı olduğunu dilə gətirdilər. Bağlar yaşayış massivindən gələn Könül Qurbanova da öz problemindən danışdı. İşsizlik məsələsi, habelə məhəllələrdə sakinlərin istirahəti üçün oturacaqların qoyulmasının, söhbətgahların yaradılmasının zəruriliyi dilə gətirildi.

Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov qaldırılan bütün məsələləri diqqətlə dinlədikdən sonra keçmiş Regenerat zavodunun ərazisində yeni fabriklərin tikiləcəyini və bunun sayəsində yeni iş yerlərinin açılacağını bildirdi. Görüşdə iştirak edən icra hakimiyyəti başçısı Aparatının məsul işçilərinə, idarə, müəssisə, təşkilat rəhbərlərinə müvafiq tapşırıqlar verildi. Yekun olaraq sakinlər əmin edildilər ki, qaldırılan hər bir məsələ nəzarətə götürüləcək və vaxtında həllini tapacaq.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

# İsmayıllıda 10 min tondan çox meyvə və giləmeyvə istehsalı gözlənilir

İsmayıllı rayonunda meyvə və giləmeyvə yığımı davam edir. Rayon Dövlət Aqrar İnkişaf Mərkəzindən AZƏRTAC-ın bölgə müxbirinə verilən məlumatda bildirilir ki, təbii iqlim şəraiti meyvəçilik üçün əlverişli olan İsmayıllıda hazırda 3937 hektar meyvə bağı var.



Bağların 928 hektarı bar verir. Son illər bölgədə intensiv meyvə bağlarının salınmasına maraq artıb və artıq bu cür bağlar 429,5 hektara çatıb. İntensiv meyvə bağlarının hər hektarından 40-50 ton məhsul götürmək olur. Cari mövsümdə bağlardan bol məhsul yığılır. Artıq meyvə və giləmeyvə istehsalı 3965 tona çatıb. Ötən il 9586 ton məhsul istehsal edən bağbanlar bu il 10 min tondan çox məhsul gözləyirlər. Yığılan meyvənin xeyli hissəsi yerli bazarlara çıxarılır.

# Uzun illər şoranlaşmaya məruz qalan torpaqlar əkinəyararlı vəziyyətə gətirilir

Mil-Qarabağ və Aşağı Şirvan Kollektorlarının İstismarı İdarəsi tərəfindən uzun illər şoranlaşmaya məruz qalan torpaqlar əkinəyararlı vəziyyətə gətirilir.



Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat katibi Dilqəm Şərifov AZƏRTAC-a bildirib ki, meliorativ tədbirlərin vaxtında aparılması nəticəsində torpaqların münbitliyi artır. Əvvəlki illərdə əkin aparılmayan sahələrdə belə müxtəlif növ kənd təsərrüfatı təyinatlı bitkilər əkilir. Uzun müddətdir şoranlaşmaya məruz qalan torpaqlar kollektor-drenaj sistemlərinin mütəmadi təmizlənməsi ilə əkinəyararlı vəziyyətə gətirilir. Bütün bu işlər Mil-Qarabağ və Aşağı Şirvan Kollektorlarının İstismarı İdarəsinin texnikaları vasitəsi ilə həyata keçirilir. Plana uyğun olaraq, idarə tərəfindən 3 ədəd borulu keçid təmir olunub, 3 ədədində isə əsaslı təmir işləri davam etdirilir. Hazırda vaxtilə tikilən və istifadə müddəti bitən borular sökülərək yeniləri ilə əvəzlənir.

Mil-Qarabağ və Aşağı Şirvan Kollektorlarının İstismarı İdarəsi tərəfindən bu ilin əvvəlindən etibarən 170 kilometr məsafədə kollektor-drenaj sistemi lildən təmizlənib. Bununla da həmin kollektorların keçdiyi ərazilər artıq münbit torpaqlara çevrilməkdədir. Hazırda kollektor-drenaj sistemlərinin təmizlənməsi sistemli şəkildə aparılır.

Qeyd edək ki, Mil-Qarabağ və Aşağı Şirvan kollektorlarının istismarı idarəsi respublikanın 6 rayonuna xidmət göstərməklə ümumi uzunluğu 5 min kilometrə yaxın kollektor-drenaj şəbəkəsinə və 173 min hektar meliorasiya olunmuş əkin sahəsinə xidmət edir. İdarənin xidməti sahələri Yevlax, Bərdə, Zərdab, Kürdəmir, Ağsu və Ağcabədi rayonlarının ərazilərində yerləşir.

# Gədəbəydə kartof bu il də bol olacaq

Bölgələrdə əhalinin həm ərzaqla, həm də işlə təminatında kənd təsərrüfatı mühüm rol oynayır. Bu gün dövlətin ən mühüm məqsədlərindən biri də məhz budur: kənd təsərrüfatını sürətlə inkişaf etdirərək əhalinin ərzaq məhsullarına olan tələbatını daxili imkanlar hesabına ödəməklə yanaşı, məşğulluğunu təmin etmək.

Cəsarətlə demək olar ki, dövlətimizin bu sahədə həyata keçirdiyi islahatlar artıq öz bəhrəsini verməkdədir. Son illər kənd təsərrüfatının inkişaf etdirilməsi istiqamətində dövlətin göstərdiyi diqqət və qayğıdan bəhrələnən gədəbəylilər də aqrar sektorun bütün sahələrində yüksək göstəricilərə nail olurlar. Xüsusilə karof istehsalında qazanılan uğurlar ildən-ilə təzələnir.

Məlum olduğu kimi, kartof hər bir ailənin mətbəxində mühüm qidalardandır. Odur ki, bu əvəzsiz nemətə ildən-ilə tələbat artır. Bütün bunları nəzərə alan rayon sakinləri cari ildə də kartofa olan daxili tələbatı ödəmək üçün əllərindən gələni əsirgəmirlər.

Gədəbəy Aqrar İnkişaf Mərkəzinin direktoru Asəf Nağıyev söhbət zamanı dedi ki, keçən il 10044,1 hektar sahədə kartof əkən rayon sakinləri 126556 ton, yəni hər hektardan 126 sentner məhsul götürdülər. Bu il həmin rəqəmin xeyli çox olacağı gözlənilir. Hazırda kartof yığımı davam edir. İndiyədək 7589 hektar sahənin məhsulu toplanıb. Hər hektarın məhsuldarlığı da ürəkaçandır. Belə ki, hər hektardan keçən ilə nisbətən 3 sentner çox məhsul götürülür.

Əsasən yerli "Telman", "Əmiri-600", "Ağçiçək", "Sevinc" sortlarına üstünlük verən rayon sakinləri bu il də əkdikləri həmin sort kartofdan nəzərdə tutulduğundan çox məhsul əldə ediblər. Yığılan məhsulun bir hissəsi elə yerindəcə satılsa da, bir hissəsi anbarlara yığılır.

Tərsyer kənd sakini Sakit Yəhyayev bu il də bol məhsul yetişdirmişdir. O, 18 hektarda əkdiyi kartofun yığımını uğurla davam etdirir. İlkin göstəricilər fermeri razı salır. Belə ki, hələlik hər hektardan 250 sentner məhsul götürür. İndiyədək ümumilikdə 450 ton kartof toplanmışdır.

Həmin kəndin sakini Cəfər Məsimalıyev isə 5 hektar sahədə əkdiyi kartofun artıq 125 tonunu toplayıb anbarlara yığmışdır.

Ümumiyyətlə, rayonda elə kənd yoxdur ki, orada kartof əkilməsin. Məsələn, Düz Rəsullu kənd sakinləri Vaqif Məmmədov 5 hektardan 75 ton, İmran Həsənov 3 hektardan 48 ton, Mutudərə kənd sakini Yadigar Cəfərov 6 hektar kartof sahəsindən 90 ton məhsul götürmüşdür.

Hazırda rayon ərazisində kartof yığımı sürətlə gedir. Yığıma ətraf kəndlərdən olan insanlar da cəlb edilmişdir. Onların hər birinə gündəlik əməkhaqqı verilir.

***S.ƏLİYEV,***
***"Azərbaycan"***



# Gəncənin simvolik gerbi yenidən yerinə quraşdırılıb



Gəncənin 6 metr hündürlükdə olan simvolik gerbinin təmiri yekunlaşıb. AZƏRTAC xəbər verir ki, artıq gerb Mənzil-Kommunal Təsərrüfatı İstehsalat Birliyi tərəfindən ənənəvi yerinə - Qala Qapıları-Arxeologiya və Etnoqrafiya Muzeyinin üzərinə yerləşdirilib.

Xatırladaq ki, bu ilin martın 20-də Gəncə şəhərində əsən güclü külək nəticəsində şəhərin Qala Qapıları-Arxeologiya və Etnoqrafiya Muzeyinin üzərində yerləşən Gəncənin simvolik gerbi aşaraq zərər görmüşdü. Altı metr hündürlükdə olan gerbə baxış zamanı simvolların bəzilərinin yararsız hala düşdüyü aşkarlanmışdı. Gəncə Şəhər İcra Hakimiyyəti başçısının tapşırığı ilə gerb şəhər Mənzil-Kommunal Təsərrüfatı İstehsalat Birliyinin xüsusi texnikaları vasitəsilə əsaslı təmir məqsədilə qurumun emalatxanasına aparılıb. Burada mütəxəssislər tərəfindən əsaslı təmir olunmasına başlanılıb və gerbin üzərindəki ornamentlər xüsusi alətlərlə sənətkarlar tərəfindən bərpa edilib.

# Lənkəranda şəhərdaxili yollara asfalt döşənir




"Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda yol infrastrukturunun inkişafına da əhəmiyyətli yer verilib.

Hər il olduğu kimi, cari ildə də Lənkəran rayonunda yol tikintisi üçün dövlət büdcəsindən ayrılmış vəsaitə uyğun olaraq layihələr gerçəkləşdirilir. Belə ki, Lənkəran Şəhər İcra Hakimiyyətinin tədbirlər planında şəhərin bütün küçələrinin tam asfaltlaşdırılması öz əksini tapıb. Küçələrin yeni asfaltla döşənməsi işləri dövlət büdcəsindən ayrılmış vəsaitə uyğun olaraq növbəlilik əsasında hissə-hissə həyata keçirilir. Hazırda şəhərin 8 küçəsinə asfalt örtüyü çəkilir. Ümumilikdə 4453 metr, 25832 kvadratmetr sahəyə asfalt örtüyünün döşənməsi nəzərdə tutulub. Bundan əlavə, abadlıq-quruculuq işləri çərçivəsində vətəndaşların rahat və təhlükəsiz hərəkətini təmin etmək üçün piyada səkiləri yenidən qurulur. Cari ildə Liman şəhərində də 2 küçənin asfaltlaşdırılması nəzərdə tutulub.





Şəhər yollarının yüksəksəviyyəli asfalt örtüyü ilə döşənməsindən məmnun qalan Lənkəran sakinləri bu işdə əməyi keçən şəxslərə, dövlət başçısı İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildirirlər.

***Ağaddin BABAYEV,***
***"Lənkəran"***
***qəzetinin əməkdaşı***

# "Shusha Chess-2022" beynəlxalq turniri başa çatdı

## Şəhriyar Məmmədyarov və Meri Arabidze Şuşada qalib oldular

*Əvvəli 1-ci səh.*









Sentyabrın 21-23-də "Qarabağ" hotelində rapid üzrə yarışlar keçirilib. Yekunda 9 oyunda 15 xal toplayan azərbaycanlı beynəlxalq qrossmeyster Şəhriyar Məmmədyarov birinci olub. 2-3-cü yerləri hərəyə 13 xalla hindistanlı Santoş Vidit və İran təmsilçisi Parhan Maqsudlu bölüşüblər.

Qadınların yarışında isə Nana Dzaqnidze liderliyini sonadək qoruyub və 15 xal qazanaraq qalib olub. İkinci yeri 12 xalla türkiyəli Kübra Öztürk Güvənli tutub. 3-5-ci yerlərdə isə hərəyə 9 xalla ölkəmizin təmsilçiləri Xanım Balacayeva, Gövhər Beydullayeva, habelə gürcüstanlı Meri Arabidze qərarlaşıblar.

Dünən isə blits üzrə yarışlar keçirilib. Nəticədə həm rapid, həm də blitsdə qazanılan xalların cəminə əsasən turnirin qalibləri və mükafatçıları müəyyənləşiblər. Kişi şahmatçıların yarışında Şəhriyar Məmmədyarov 26 xalla "Shusha Chess-2022"nin qalibi olub. İkinci yeri 24,5 xal qazanan Parhan Maqsudlu tutub. Üçüncü yerə isə Santoş Vidit sahiblənib - 23,5 xal.

Qadınların yarışında isə Meri Arabidze hamıdan üstün olub- 24 xal. İkinci yerdə 23,5 xalla Nana Dzaqnidze qərarlaşıb. Üçüncü pillədə isə 20 xal toplayan Kübra Öztürk Güvənli yer alıb.

Xatırladaq ki, kişi şahmatçıların yarışında Azərbaycan milli komandasının üzvləri - üçqat Avropa çempionları Şəhriyar Məmmədyarov, Teymur Rəcəbov, Qədir Hüseynov, Rauf Məmmədov və 18 yaşa qədər şahmatçılar arasında Avropa çempionu Vasif Durarbəyli, həmçinin Asiya çempionu Van Xao (Çin), 20 yaşa qədər şahmatçılar arasında dünya çempionu Santoş Qucrati Vidit (Hindistan), gənclər arasında dünya çempionatının qalibi Parham Maqsudlu (İran), FIDE dünya çempionu Rüstəm Qasımcanov (Özbəkistan) və Türkiyə çempionu, 2021-ci ildə ölkəsinin ən yaxşı şahmatçısı seçilən Mustafa Yılmaz iştirak ediblər.

Qadınların yarışında milli komandanın üzvləri - Avropa çempionatının mükafatçıları Günay Məmmədzadə, Ülviyyə Fətəliyeva, Gülnar Məmmədova, Xanım Balacayeva, Gövhər Beydullayeva, habelə Ümumdünya Şahmat Olimpiadasının qalibi, Avropa çempionu Nana Dzaqnidze (Gürcüstan), yeniyetmələr arasında dünya və Avropa çempionu, ölkəsinin ən reytinqli qadın şahmatçısı Marsel Efroimski (İsrail), 18 yaşlılar arasında dünya çempionu Yolanta Zavadska (Polşa), yeniyetmələr arasında dünya çempionu Meri Arabidze (Gürcüstan) və Türkiyə çempionu Kübra Öztürk Güvənli mübarizə aparıblar.

Təşkilatçılar "Shusha Chess-2022" turnirinin iştirakçıları üçün Şuşa şəhərinə ekskursiya təşkil edib. Şahmatçılar Şuşa qalası, Molla Pənah Vaqifin muzey-məqbərə kompleksi, Cıdır düzü kimi tarixi məkanları ziyarət ediblər.

Turnirin iştirakçısı, üçqat Avropa çempionu Rauf Məmmədov yarışla bağlı təəssüratlarını bölüşüb. İlk növbədə turnirin Şuşada keçirilməsinin önəmindən danışan şahmatçımız şəhərə ekskursiyanın onu valeh etdiyini bildirib: "Şuşada bütün tarixi məkanları görmək istəyirdim. Cıdır düzündə olmaq arzularımdan biri idi. Cıdır düzündə insan özünü fərqli hiss edir. 40-a yaxın ölkədə olmuşam, belə təbiət görməmişəm. Şuşa çox gözəldir, şəhər insanı valeh edir".

Şahmatçı Şuşa turnirinin ənənəvi olmasını arzuladığını deyib: "Şuşada şahmat turnirinin hər il keçirilməsi yaxşı olardı. Əlbəttə bu, təşkilatçılardan asılıdır. Amma şahmatçı kimi Şuşada yarışmaq çox gözəl hisslərdi. Növbəti illərdə tanınmış şahmatçıları Şuşada görmək istərdim. Dünya çempionu Maqnus Karlsenlə Şuşada eyni yarışda iştirak etmək maraqlı olardı".

Azərbaycan milli komandasının üzvü Gövhər Beydullayeva da yarışla bağlı fikirlərini açıqlayıb. Xanım şahmatçı ilk turnirin gərgin mübarizə şəraitində keçdiyini deyib: "Şuşa turnirində maraqlı mübarizə izlədik. Kifayət qədər məzmunlu oyunlar var idi. Əminəm ki, Şuşada ilk beynəlxalq şahmat yarışı heç vaxt unudulmayacaq".

Təşkilatçılığı yüksək qiymətləndirən G.Beydullayeva Azərbaycan üçün yarışın böyük əhəmiyyət kəsb etdiyini bildirib: "Bu yarış Azərbaycana görə çox vacibdir. İlk dəfə olmasına baxmayaraq, təşkilatçılıqda problem görmədim. Şahmatçılara lazımi şərait yaradılıb. Əcnəbi şahmatçılar Şuşada təşkilatçılıqdan razıdırlar. Ümumiyyətlə, Şuşada insan təkcə şahmat barədə düşünmür. Şəhər hər birimizə çox maraqlıdır. Yarışın reallaşmasında əməyi olan bütün təşkilatçılara çox sağ ol deyirik. Şuşada şahmat turnirlərinin tez-tez olmasını arzulayırıq".

Qeyd edək ki, bu turnir nəinki Şuşada, ümumilikdə Qarabağda FİDE bayrağı altında keçiriləcək ilk rəsmi beynəlxalq şahmat yarışı olub.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***





# OXUCULARIN NƏZƏRİNƏ!

***"Azərbaycan" qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, **(012) 539-59-33** nömrəli telefona zəng vura bilərsiniz.*


# Şəhidlərin xatirəsinə həsr olunan veloyürüş keçirilib





Sentyabrın 24-də Vətən müharibəsi qazilərinin iştirakı ilə şəhidlərin xatirəsinə həsr olunmuş veloyürüş keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Velosiped Federasiyasının (AVF) 27 Sentyabr Anım Günü ilə bağlı təşkil etdiyi veloyürüşə 30 nəfərdən çox qazi, federasiyanın nümayəndələri və milli komandanın üzvləri qatılıb.

Öncə yürüş iştirakçıları İkinci Fəxri xiyabanı ziyarət ediblər. 44 günlük Vətən müharibəsində respublikamızın ərazi bütövlüyünün qorunması, bərpası və torpaqlarımızın işğaldan azad olunması uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalan qəhrəman Vətən övladlarının xatirəsi ehtiramla yad edilib, məzarları üzərinə gül dəstələri qoyulub.

Daha sonra veloyürüşə "Azneft" dairəsindən start verilib. İştirakçılar Dənizkənarı Bulvarla hərəkət edərək Hərbi Qənimətlər Parkının qarşısında yürüşü başa vurublar.

Qazilər Hərbi Qənimətlər Parkını gəzib, Vətən müharibəsi zamanı düşmənin qoyub qaçdığı atıcı silahlar, ağır texnikalar, raket kompleksləri, hərbi nəqliyyat və digər sursata bir daha baxıb, 44 günlük Vətən müharibəsində Azərbaycan hərbçilərinin qəhrəmanlığından, keçdikləri döyüş yolundan danışıblar.

Sonda yürüş iştirakçıları "Zəfər" restoranında təşkil edilən çay süfrəsinə dəvət ediliblər.

AVF-də Qazilərlə iş bölməsinin rəhbəri, Vətən Müharibəsi Qəhrəmanı Qəzənfər Ağayev Azərbaycanda şəhid ailələri və qazilərə dövlət səviyyəsində yüksək diqqət və qayğı göstərildiyini qeyd edib: "Həmin təbəqədən olanlara həssas münasibət dövlət siyasətinin əsas tərkib hissəsidir. Azərbaycan Velosiped Federasiyasında dövlət siyasətinə dəstək məqsədilə Qazilərlə iş bölməsi yaradılıb. Məqsədimiz qəhrəmancasına döyüşərək torpaqlarımızın işğaldan azad edilməsində əvəzsiz xidmətlər göstərən qazilərin və müharibə iştirakçılarının fiziki reabilitasiyası, idmanla məşğul olmaları, eləcə də həmin fədakar və iradəli insanların təcəssümündə cəmiyyətdə sağlam həyat tərzinin təbliğidir. Bugünkü veloyürüş idman federasiyaları arasında ilk belə tədbirdir. Bundan sonra da bu cür tədbirlərimizin davam etdirilməsi planlaşdırılır".

Vətən müharibəsi qaziləri - birinci qrup əlil Bəhlul Əliyev və Orxan Xıdırov şəhidlərimizin əziz xatirəsinə həsr olunan veloyürüşü qazilərə olan diqqətin bir nümunəsi kimi qiymətləndiriblər. Onlar veloyürüşün qazilərdə maraq yaratdığını və belə təşəbbüslərin davamlı olmasını arzuladıqlarını bildiriblər.

# Son sutkada Azərbaycanda COVID-19 infeksiyasına 149 yoluxma faktı qeydə alınıb

Son sutkada Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına 149 yoluxma faktı qeydə alınıb, 210 nəfər müalicə olunaraq sağalıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 1 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 820 min 662 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 809 min 420 nəfər müalicə olunaraq sağalıb, 9 min 903 nəfər vəfat edib. Aktiv xəstə sayı 1339 nəfərdir.

Son sutkada yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 2 min 938, dünənə qədər isə ümumilikdə 7 milyon 234 min 280 test icra olunub.




# Sentyabrın 24-də Azərbaycanda COVID-19 əleyhinə 885 doza vaksin vurulub

Sentyabrın 24-də Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyası əleyhinə 885 doza vaksin vurulub.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a bildirilib ki, gün ərzində birinci doza üzrə vurulan vaksinlərin sayı 245, ikinci doza vaksinlərin sayı 152, üç və daha çox doza vaksinlərin sayı 422, pozitiv nəticədən sonra "buster" doza vaksinlərin sayı 66-dır.

Azərbaycanda dünənə qədər vurulan vaksin dozalarının ümumi sayı 13 milyon 885 min 828, birinci mərhələ üzrə vurulan peyvənd dozalarının ümumi sayı 5 milyon 380 min 403, ikinci mərhələ üzrə 4 milyon 866 min 780, üç və daha çox doza vaksinlərin sayı 3 milyon 377 min 244, pozitiv nəticədən sonra "buster" doza vaksinlərin sayı 261 min 401-dir.




# İş adamları Ermənistandan qaçır

## Xarici və yerli sərmayədarların inamsızlığı nəticəsində investisiya qoyuluşu kəskin azalıb

Ermənistanda cinayət hadisələrinin sayında əhəmiyyətli dərəcədə artım baş verib ki, bu da sözügedən ölkənin ümumilikdə kriminallar məskəninə çevrilməkdə olduğunu göstərir. Ölkənin bölgələrində də cinayətkarlıq səviyyəsi əsas etibarilə mülkiyyət oğurluğu, özgənin əmlakını qanunsuz yolla mənimsəmək və bu qəbildən olan qanunazidd əməllər hesabına yüksəlməkdədir. Məhz bu da iqtisadi problemlərin Ermənistan üçün daha bir fəsad yaratdığını, ölkənin kriminogen durumunu xeyli ağırlaşdırdığını təsdiqləyir.

Ermənistan rəsmilərinin korrupsiyaya qurşanmaları, ölkə iqtisadiyyatında yaranmış böhranlı vəziyyət, əhalinin əksəriyyətinin yoxsulluğun son həddində yaşaması, işsizliyin tüğyan etməsi iş adamlarını bu ölkədən qaçırır. Digər tərəfdən, ailəsini dolandırmaq xatirinə ölkəni tərk edənlərin sayının artması, iş adamlarına açıq-aşkar təzyiqlər göstərilməsi və onlardan haqq tələb olunması, istər xarici, istərsə də yerli investorların Ermənistana sərmayə yatırmaqdan boyun qaçırmaları investisiya qoyuluşunun kəskin şəkildə azalmasına təsir edən başlıca amillər sırasında yer almaqdadır. Xarici investorlar iqtisadi inkişafı sual altında olan və məmurların öz səlahiyyətlərini aşaraq özbaşınalıq etdikləri bir ölkənin iqtisadiyyatına sərmayə yatırılmasının nə dərəcədə böyük risk olduğunu yaxşı anlayırlar.

Xarici və yerli sərmayədarların inamsızlığı nəticəsində investisiya qoyuluşunun kəskin azalması iqtisadiyyatı getdikcə tənəzzülə uğramaqda olan Ermənistanı daha ağır vəziyyətə salıb. Bu fonda Rusiya ilə ticarətin həcminin azalması isə erməni ekspertlər tərəfindən böyük fəlakət kimi qiymətləndirilir.

Bu günlərdə Ermənistanın iqtisadiyyat naziri Vaan Kerobyan ötən il investisiyalarda rekord artımın qeydə alındığını, ümumi həcminin 1 trilyon 379 milyard dram, bunun da təxminən 3 milyard dollar təşkil etdiyini, tarixdə Ermənistanda belə bir rəqəmin olmadığını açıqlayıb. Rəsmi statistikaya əsasən, 2021-ci ildə Ermənistanın ümumi daxili məhsulun (ÜDM) ümumi yığılması 1 trilyon 370 milyard dram, yəni təxminən 2,8 milyard dollar qiymətləndirilir.

"4rd.am" saytı yazır ki, mütləq ümumi yığım əmsalı Ermənistan tarixində ən yüksək göstəricidir, lakin onların real dəyəri nisbətən aşağıdır, çünki son illərin məcmu inflyasiyasını nəzərə alsaq, eyni yığım sürəti təxminən 10 faiz azalacaq: "Ona görə də 2021-ci ildə qoyulan investisiyaların bir hissəsi inflyasiyanı yeyib. Məsələn, tikinti materiallarının ikirəqəmli bahalaşması şəraitində ölkə vətəndaşı tikintiyə daha çox pul xərcləyib, amma eyni evi tikib. İnvestisiyaların ümumi yığımına bir il ərzində dövlət, icmalar, təşkilatlar, fiziki şəxslər tərəfindən əsas kapitala edilən xərclər daxildir. Bu göstəricinin hesablanmasına dövlət tərəfindən çəkilən yolların xərcləri, dövlət tərəfindən tikilən mənzilin dəyəri və sairə də daxildir. Ermənistan Statistika Komitəsi faktiki uçota alınmış xərclərlə yanaşı, mütəmadi olaraq ümumi yığımları qiymətləndirir, yəni müəyyən metodologiyaya uyğun olaraq artırır. Bu hesablamalar heç vaxt statistika komitəsi tərəfindən açıqlanmır, bunlar ümumi yığımların strukturunu başa düşməyə imkan verə bilər".

Ermənistanda 2021-ci ildə ümumi yığım 9,1 faiz artıb. 2017-2018-ci illərdə ümumi yığım 2021-ci illə müqayisədə müvafiq olaraq 10,3 və 14,5 faiz çoxalıb. İnvestisiyaların misli görünməmiş artımının olmaması Ermənistanın ÜDM-də ümumi yığımın payının 19,6 faiz təşkil etməsi ilə də təsdiqləyir ki, bu da son 5 ilin analoji göstəricisindən aşağıdır.

Ermənistanda özəl investisiyaların tərkibi və strukturu da çox pis vəziyyətdədir. Xüsusilə 2021-ci ildə yatırılan xarici investisiyaların böyük hissəsi metal filizinin hasilatına və enerji sisteminin payına düşür. Maraqlıdır ki, birbaşa xarici investisiyaların təqribən 70 faizi hazırda iqtisadiyyatı ciddi problemlərlə üzləşən Rusiya Federasiyasından gəlib. Odur ki, 2022-ci ildə Rusiya şirkətlərinin Ermənistan iqtisadiyyatına aktiv şəkildə sərmayə qoymağa davam edəcəyi ehtimalı çox azdır.

Görünən odur ki, hər il Ermənistan vətəndaşlarının yaşayışı ötənilkindən daha ağır olur. Qeyd olunanlar Ermənistanın bir dövlət olaraq sürətlə öz məhvinə doğru yaxınlaşdığını deməyə əsas verir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
***e-mail:***
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

**Qeydiyyat nömrəsi 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir**

**Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir**

**Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır**

***Gündəlik qəzet***

**Tiraj 6565**
**Sifariş 2658**
**Qiyməti 40 qəpik**